
Sevgi Miri
Röyamda
ilham alıram

SEVGİ MİRİ

# *RÖYAMDA İLHAM ALIRAM*

I kitab

Nərgiz NƏŞRİYYATI
BAKI-2011

Redaktor: ***H.Musayev***

**Sevgi Miri** (Sevgili Mirəhməd qızı Rəcəbova).
«Röyamda ilham alıram». Şeirlər. Bakı, «Nərgiz» nəşriyyatı. – 204 səh.

***Sevgi Miri Füzuli rayonunun Arayatılı kəndində anadan olub. «Röyamda ilham alıram» kitabı müəllifin oxucularla ilk görüşüdür. Kitabdakı şeirlər Allaha sevgidən doğmuşdur. İnsanları Haqqa səsləyir, ibadətə çağırır. Kitabın adından göründüyü kimi müəllif öz yazılarını röyada aldığı ilhamla** hikmətləri **yazıb-yaradır.***

M $\frac{742000000}{079}$ 652-2011

© «Nərgiz», 2011

*Yoxsa əgər tabın yanmağa,*
*Başla indidən qurtulmağa.*
*Günahlara tövbə edib,*
*Cənnəti sən qazanmağa.*

*Röya sirli bir aləmdir,*
*Ağlın ötəsindədir.*
*O, bir sirr, olaraq,*
*Haqqın öhdəsindədir.*

*İrfan nədir?*
*İrfan Rəbblə söhbətdir.*
*İlhamıyla, hikməti bilməkdi,*
*Görməsə də hüsnünü,*
*Fəəsirətlə görməkdir.*



**Bismillahir-rəhmanir-rəhim**

## MÖCÜZƏ
(Röyalarıma)

Göndərdin möcüzəni,
Könlüm imana gəldi.
Həm imana, həm ilhama gəldi,
İlhamım göylərə yüksəldi.
Dərdimin dərmanı sənsən deyə,
Dərgahına dərmana gəldi.
Bəsirət gözüylə görən insana
Bu dünya əfsanə gəldi.
Atıb eyşi-işrəti,
Aranı edib xəlvəti,
Röyamdakı söhbəti
Könlüm fəğana gəldi,
Möcüzələr yenə
Röyama gəldi. (surə 28:7)

XII.2008

## KİMDİR

Kimdir mənə söz deyən,
Röyalarda mat edən?
Haqq yolunu göstərib,
Mənə səbr diləyən?

Dedi: Lənət et şeytana,
Sən yetərsən murada.
Allahım böyük adı –
«Əsmayı-husna» deyilir ona. (surə 59,24)

Bəs, o biri adların nədir?
Dedi: Onlar mənim sifətlərimdir.
Haqq yanında kövhərlərimdir,
Onlar mənim hünərlərimdir.

Tövbə et Allaha,
Ümid bağla sabaha.
Tövbəni qırıb
Asi olma Allaha.
İrfan nədir?
İrfan Rəbblə söhbətdi.
İlhamıyla bilməkdi,
Görməsə də hüsnünü,
Bəsirətlə görməkdi.

XI.2008

***

Dedi: Gecə-gündüz ibadət eylə,
Səni sevənlərə mərhəmət eylə.
Dərdli könüllərə sözünü söylə,
Sənə olan sevgimi
Dünyaya bəyan eylə,
Əlamətin yetdiyini
Onlara əyan eylə.

Gəl könlümə dərman eylə,
Zindan olan könlümü
Əlinlə azad eylə.
Mənimlə ibadət eylə,
İbadətinlə könlümü şad eylə.
Şeytana uyanları
Öz əlinlə azad eylə.

Görsən simasını həmən anlarsan,
Sən də susub lal olasan,
İmansız gözündə qınanmayıb,
İmanlı könlünə dərman olasan.

XI.2008

## YALAN DÜNYA

Dedi: Kim gəlmiş, kim getmiş,
Dünyadan əlin üzmüş,
Dünyada olanlar
Dünyamıza gəlmiş.

Dünya dediyin qəmxanədi,
Həm şirindir, həm zəhərdi.
Kim ondan dadmış,
Özünü odlara atmış.

Sənə olan sevgimi,
Dünyaya bəyan eylə.
Gözümü yoldan yığıb,
Canımı canına qurban eylə.

Bir gün tarimar olacaq,
Çiçəkləri solacaq.
Sizi özündən atacaq,
Taxtı-tacı viran olacaq.

***

Bütün dənizləri qurudub
Tavanı yerə töküb, (surə 52.5)
Göyləri söndürüb,
Yağışları yağdırıb,
Dağları parçalayıb (surə 77.10)
İldırımları çaxdırıb,
Altını üstünə çevirib,
Ulduzları yerə töküb, (surə 81.2)

Günəşi söndürüb, (surə 81.1)
Ayı da ona qatıb,
Hamısını bir yerə qatıb,
Külünü göyə sovurub,
Əlimlə bitirəcəyəm,
Dünyanı yox edəcəyəm!

XII.2008

## GERÇƏK DÜNYA CƏNNƏTDİR

Dedi: Gerçək dünya cənnətdir,
Neçə-neçə pillədir.
Hamısı bəzədilib,
Çiçəkləri düzülüb,
Həyəti süpürülüb,
Hasarı ucaldılıb. (surə 7.46)
Ağacları yaşıl olub,
Rəngi heç vaxt solmayıb.
Gülləri rəngbərəngdir,
Hərəsinin öz qoxusu.
Çiçəkləri ətirlidir, (surə 56,89)
Çiçəyinin qoxusu
Dünyanı götürübdü.
Onu qoxlayanlar
Özünü itiribdi.
Yamyaşıl xalısı var, (surə 71.19)
Ağaclarda salxımlar. (surə 56.29)
Çoxlu meyvələri var,
Hərəsinin öz dadı,
Öz tamı var.
Dünya belə dünyadı,
Sizi gözləyib
Bizə gətirən dünyadı.

## GERÇƏK ÖLÜM

Dedi: Gerçək ölüm bir dəfədir,
Canı yerdə, ruhu göydədir.
Ya cənnətdə, ya cəhənnəmdə,
Özü bilir hardadır.

Cənnətliklər bizimdir,
Onlar fəxrimiz olub.
Hərəsinin öz yeri olub,
Günahlardan təmizlənib
Bizə qonaq olubdur.
İman nuruyla bənzədilib
Canımıza can verib.
Bizim fəxrimizdir,
Hamısı bizə əzizdir.

XI.2008

## CƏHƏNNƏMƏ GEDƏNLƏR

Dedi: Ruhları sərkərdan olub,
Heç yerdə qərar tapmayıb.
Həyatdan bezgin olub
Ruhları söndürülüb.
Özləri də bezib,
Bizə gətirilib.
Cəhənnəmi hazırlamışıq,
Odla odlanmışıq.
Onları atıb ora,
Sonra da kül edib
Dağlarına tökmüşük.

Qiyaməti gözləmişik,
Cəsədləri dirildib
Cəhənnəmə gətirərik.
Hərəsinin öz yeri var,
Günahına görə paylanıb.
Ora dolduracayıq,
Yeməyi zəqqum olub (surə 56.52)
İçməyi irin olub,
Canında taqət olmayıb, (surə 88.7)
Pilləri enib (88.3)
Hər gün dolaşacaqlar.
Sonra da bir-birinə
Savaşla qarışacaqlar.
Bir-birini didib,
Can boğaza gətirib,
Özləri də bezib
Ruhları öldürüləcək.
Heç vaxt çıxmayıb
Həyat eşqləri söndürüləcək.
Bax belədir cəhənnəm,
Şeytanları gətirib (surə 26.95)
Onlara qatacayıq.
Cinləri onlara qatıb (surə 6.128)
Bir-birinə girdirəcəyik.
İndi anla cəhənnəm
Dözə bilərsinizmi?
Özünüz seçin,
Ya Haqqa gəlib yüksəlin,
Ya da cəhənnəmlik olun,
Seçim sizindir!
İradəniz azaddır,
Özünüz bilin.

XI.2008

## QİYAMƏTİN ƏLAMƏTLƏRİ

Dedi: Möcüzəmlə sizi sarsıdacam,
Canınızı candan edib qıracam.
Etməyib rəhm kafirlərə,
Çün kafirlər bizi pərişan etdilər.
Məhvərindən çıxarıb dünyanı,
Külünü göyə sovuracam.
Özüm yaratdığım dünyanı
Özüm bir gün yıxacam!
Zəlzələlər göndərib sizi mat edəcəm,
Yetməyəcək dadınıza bir kimsə,
Gözlərinizi yaşlı qoyub zəlil edəcəm. (surə 68.43)
Verməyib Haqqın borcunu,
Gündən-günə alçaldınız.
İnsanlıqdan çıxıb canavar oldunuz,
Saymayıb ibadətdən qaçdınız.
Ölüm yoxmuş kimi ibadəti unutdunuz,
Nankorluqla canımı çox sıxdınız.
Yaratdığım dünyanı
Siz məhvə uğratdınız!
Dünya üçün imanı unutdunuz,
Nahaqdan əlinizi qana buladınız.
Olmayacaq dərdinizə dərman,
Özünüzə cəhənnəm yaratdınız.
Ancaq möminləri sevdim dünyada,
Möminlər mənim canım olub.
Canımı onlara qurban edərəm,
Onları cənnətimə gətirərəm.

Batsın, belə dünya, yaşamağa haqqı yox,
Haqsızlıqla onu məhvə uğratdılar.
Oldum pərişan nahaq qanları gördükcə,
Canımdan can getdi qanları gördükcə.
İradə azaddır, məcbur yox ki,
İnsan haqqa gəlsin.
Özü haqqı seçsin,
İlhamımla sizə göndərib sözlər,
Bəlkə ar edəsiniz,
Arla bərabər Haqqa gələsiniz!
Cənnəti qurban edərəm möminə ki,
Onu yaratdım, ona halal etdim.
Halallıqla bərabər Haqqa yönəltdim,
Dinləməyib sözlərimi vaz keçdiniz,
Özünüzə cəhənnəm seçdiniz.

XI.2008

## VARIN ƏLDƏN GETMƏSİ

Dedi: Bütün dünyanı versən insana,
Gözü döymaz heç zaman.
Əllərini boyayıb qana
Yenə dünyanı almaq istər.
Çox iddialıdır, özü buna şahiddi,
Çün, ac yaranıb, gözü buna şahiddi.
Yeni torpaqlar zəbt etsə də,
Gözü doymaz, cəhənnəmlikdir.
Əllərimlə yaratdığımı
Bir gün dağıdacam.
Zamanı heç kəs bilməz,
Lövhu-məhfuzdadı deyilməz. (Surə 78.29)
Sevgi xanımı dünyaya bəyan eylədim,
İlhamı verib sizə göndərdim. (surə 12.68)

Bəlkə ibrət götürüb imana gəldiniz,
Günahlardan əl çəkdiniz.
Tövbə edib Haqq yoluna gəlin,
Tövbə etsə günahsız gələr bizə.
Mən də rəhm edib sizə
Az olan zamanı,
Sizə həyat verərəm,
Uzadaram zamanı.
Yeni daşqınlar götürəcək dünyanı,
Zəlzələlərlə kəndləri, şəhərləri,
Boşaldıb dünyanı
Sizə zülm edəcəyəm.
İstərsiniz inanın, ya da inanmayın,
özünüz şahid olub
görüb möcüzəni
lal olacaqsınız!

XI.2008

## ZƏLZƏLƏLƏR

Dedi: Vulkanları toplayıb bir yerə
Yer üzünə dağıdacam.
Kəndləri, şəhərləri
Onunla bitirəcəyəm.
Hər gün yeni bir aləm açıb önündə,
Gərək möcüzələr göstərim yenə.
Heyrətlə baxan gözləriniz,
Zəlilcə dikiləcək yerə. (surə 68.43)
Qana qan etdiniz,
Cana can etdiniz.

Tükətdi səbrimi,
Ərşimi titrətdiniz.
Körpələrin naləsi
Hələ qulağımdadır.
Rəhm etməyib
İnsanlığı unudub!
Nahaq qanlar tökdünüz,
Sizə olan sevgimi
Beləcə itirdiniz.

XI.2008

**NANKOR İNSAN**

Dəyərsiz bir nütvədən (surə 80.19)
Yaratdı bizi.
Canımıza can verib,
Ana bətnində diriltdi bizi,
Şeytan yollarda azdırıb bizi,
Günahkar eylədi hər birimizi.
Kimi günaha tövbə eyləyib,
İman nuruyla Haqqa yönəlib,
Kimi də borcun verməyib.
Bu qədər zəhməti çəkib insana,
İnsan nankor olubdur ona.
Mənimtək zəhmətin hədər gedəndə,
Heç də üzülüb özünü üzmə,
Şükürlər et böyük Rəbbinə.

XI.2008

## İLHAMIM

Nə alınmaz, nə də satılmaz,
O elə ilhamdır, hər könüldə olmaz.
İlhamım gələndə
Ürək yanır, can verir,
Yaram yenə qan yerir,
Bu necə ağrıdır,
Ağrıları sağaldıb
Yaradan yenə,
Canıma can verir.

XI.2008

## İMZASI YOX

Dünya şah əsəridir,
Yaradanın imzası yox,
İmzanı atıb könlümə
Onu dərk edim deyə,
Sən varsan hər yerdə,
Sevən könüllərdə,
Dərdli ürəklərdə,
Hər gülün, çiçəyində,
Hər çiçəyin ləçəyində,
Həm rəngində
Həm ahəngində.
Bütün rənglər andırır səni
Yaratdıqların oxuyur,
Şükürlər nəğməsini. (Surə 17,44)

XI.2008

## İLAHİ EŞQ

Dünyanın dərdi-qəmin
Töküb üstümə,
Öz eşqindən verib könlümə,
Könlümü zindan eləsin.
Açıb bəsirət gözünü,
Ona şükür eləsin.
Aç göstər könlünü,
Qoy dərman eləsin.
Ona olan eşqimi
Dünyaya bəyan eyləsin.
Mən Allah aşiqiyəm,
İnanma kimsə
Dərdinə dərman eləsin.

XII.2008

## BƏZİ ALİMLƏRƏ

Tanrının şah əsərini
Kəşf etdim deyə,
Özünü öymə.
Kəşf etmək üçün
Kəşf etməlisən özünü.
Necə kəşf edəsən
Onun əsərini
Qədərində verib.
Hər kəsin elmini
Kəşf edə bilsəydin
Zəbt edib əsərini
Özünü Tanrı sayıb
Göstərərdin elmini.

XII.2008

## VULKAN

Dedi: Mən elə vulkanam,
Hər zaman yanmağa
Odum var mənim.
Hər mövzuda yazmağa
Sözüm var mənim.
Hələ deyilməmiş
Sözüm var mənim.
Ürəkdə yanmayan
Közüm var mənim.
Haqdan çıxanlara
Sözüm var mənim.
Mən haqqın səsiyəm,
Allah aşiqlərinin
nəfəsiyəm.
Səni gətirmişik ilhama,
Can çox sözlər söylər canana.
Sənin kimi şeir yazan
Gəlməyib hələ cahana.

XII.2008

## MƏHƏMMƏD PEYĞƏMBƏRƏ

Allah könlünə iman verib,
Yer üzünə peyğəmbər göndərib.
Səlavət göndərib hər gün adına,
Şükürlər edirəm Yaradanıma,
İmanınla islamı yaşatmısan,
Dözüb təhqirlərə sozünü yazmısan,
Tanrı yanında Haqqa ucalmısan.

XII.2008

## BİGANƏLƏRİ

Könül deyir biganədən
Üzaq olmalısan.
Tanrı nuruna çatmalısan,
İlhamınla yarmalısan.
Qəlbi çox pərdəliymiş,
Allah da açıb iman verməmiş.
Yaşasa da ölü canlardı,
Biganə adamlardı.
İnsanlıq nədir bilməz,
Ürəkdən heç gülməz.
Gözləri çox soyuqdu,
Sevgi nədir bilməz.
Bəzisi, dildə imana gəldim deyə,
Kəbəyə gedib, «Hacı» olarmış.
Altdan-altdan evlər yıxarmış,
Qəlbləri çox qatıdır,
Zatı şeytan zatıdır.
Yox eşqi, kamalı,
Nə də amalı,
Ancaq puldu
Onun imanı.

XII.2008

## GERÇƏK OLAR

Allahın dərgahında
Hər şey gizli qalar.
Gün doğmadan nələr doğar,
Puç olmuş arzular
Bir gün gerçək olar.
Sanma dünya bizə qalar,
Bizdən ancaq iz qalar.

Ruhumuz göyə ucalar,
İnanmasağ da ölümə
Ölüm bizə qonaq olar.
Öləcəyini billə-bilə
Pislikdən əl çəkmir yenə.
Ruhunu satıb şeytana,
Cəhənnəmi bilə-bilə.

XII.2008

## KİMDİR-GÜCLÜ İNSAN

Dedi: Günlərlə ac qalıb
Nəfsini enən insan.
Nəfsini enməklə sən
İman nuruyla
Elmlə yüksəlmisən.
Tapıb elmin açarını
Sual cavab etmisən.

## DƏRD

İllərin dərdi qalaq-qalaqdı,
Ürəyim oxunmamış dərdli kitabdır.
Açıb kitabı saralmış vərəqləri
Yazıram bir-bir dərdlərimi.
Bütün yollarımı bağlayıb fələk,
Özünə gələn yolu- açıq qoyub
Ona gələ bilək.

## ALLAH AŞİQLƏRİ

Hər gün yeni aləm açıb önümdə,
Səni dərk edim deyə,
Könlümdə olan böyük sevgiyə
Yenə ümidimi bağlayım, yenə.
Görüb möcüzəni lal qalmışam,
Şükürlə alqışlamışam.
Layiq deyiləm bu hörmətinə,
Bu lütfü edibsən mənə.
Öz əlinlə dərman edib dərdimə,
Yenə ümid veribsən mənə.
Elə bir sirli aləmdəyəm ki,
Xəyalım göylərdədi.
Tanrı eşqiylə yanan ürəyim,
Bu dunyanı unudub yenə.
Allah aşiqləri belə yanarmış,
Xəyalı göydə olarmış.
Göz yaşı yanaqdan süzüb,
Əlini yandırarmış.
Eşqinlə yanmaq istərəm,
Əzabı versən dözərəm.
Atıb atəşlərə könlümü,
Səndən sevgi istərəm.
Bu dünya zindan könlümə,
Qurtulub bu zindandan
Xəstə olan könlümə
Səndən dərman istərəm.
Əl çəkib bu dünyadan
Sənlə birləşmək istərəm.

XI.2008

## GƏLƏCƏYİMİZ

Nə gözləyir bizi,
Hansı kölgələr izləyir bizi,
Unudub keçmişi,
Gözləyək gələcəyimizi.
Könül yenə saralıb-solacaq,
Yoxsa bəxt bizimlə olacaq,
Xəyallar yorub bizi,
Gözləyək gələcəyimizi.
Hər şeyi Yaradan bilər,
Hər zaman dualar edək.
Əsirgəməyək sevgimizi,
O versin qismətimizi.

XI.2008

## ALLAH EŞQİ

Cismimi atəşlərə atıb,
Yanıb kül olmuşam.
Xəyalı ilə dost olub,
Haqqa yüksəlmişəm.
Pərişan olub halım,
Daha qalmayıb canım.
Taqətdən düşüb
Göz yaşı həmdəmim olub.
Məni dərdə salıb,
Yuxum ərşə çəkilib.
Taqətsiz dizlərim,
Yox olub gündüzlərim.

Axırda yenə sızlərin
Qarşısına gəlib,
Öz sözümü söyləyib,
Dünyaya bəyan eyləyib,
Əllərimi üzməyib
Sizə həmdəm olaydım,
Dərdinizə şərik olub
Sizə sevgi paylayaydım.

XI.2008

## İMAM HÜSEYNƏ

Bu gün şəmi-qərib andı,
Eyləyib könlümü, qandı.
Qan-yaş tökən gözlərim
Yenə də pərişandı.

Şəhidlik zirvəsinə ucalıb
Tanrının yanında yer eyləmisən.
Əhli-beyti yerində qoyub,
Dünyanı nur eyləmisən.

Anan Zəhra sağ olsaydı,
Gözündən qan-yaş tökərdi.
Adına nəğmələr oxunub,
Cəmi islam ağlayır sənə.

## YETMİŞ İKİ ŞUHƏDA

Dedi: Siz igidlərin ən gözəlisiniz,
Əlləriniz qana boyansa belə.
Onsuz da cənnətdə yeriniz hazır,
Əhli-beytlə bir yerdəsiniz.
Vuran qolunuz var olsun,
Görən gözünüz sağ olsun.
Bütün dünya bəxtiyar olsun,
Canımızdan sizə can olsun,
Əhli-beyti yaşadanları sağ olsun!

## ƏHLİ-BEYTƏ

Dedi: Ya Hüseyn, səninlə fəxr edirik,
Sənə güvənirik, biz səni sevirik.
Dərdinizdən bilirik
Sizə sevgi göndəririk,
Dünyaya bəyan edirik.
Dünyanı sevindiririk.
Əlləri qoynunda qalan,
Bizi dərdlərə salan,
Gözləri yaşla dolan,
Həmişə savaşda olan,

Dünyaya dastan olan,
Gözləri yollarda qalan,
Dünyanı heyran qoyan,
Könülləri sevindirib,
Bizi heyrətləndirib.

Belə dünya yox olsun,
Bizi heyrətləndirib.
Dünyanı heçə sayıb,
Həmişə hazırcavab olub.

Əlləriniz var olsun,
Könülləriniz şad olsun,
Elləriniz bəxtiyar olsun,
Dilləriniz var olsun!

Gözəl günlər qabaqdadır,
Firavan həyat surəsiniz.
Hər obanız, kəndiniz
Var olub hər biriniz
Bizə qonaq olaydınız.

Bizə qonaq gələydiniz,
Süfrənin başında
Təamlarımızdan yeyib
Mütəkkəyə söykənib
Dincələydiniz.

Yeriniz cənnət olub,
Hər zaman həmdəm olub.
Əlləriniz var olub,
Elə bəxtiyar olub.

XII.2008

## ŞƏHİD HZ:ƏLİ-ƏKBƏRİN XATİRƏSİNƏ

Dedi: Bizə gələn yolunuzu,
Gözəl döşəmişik,
Baxçaları, bağları
Silib-süpürmüşük.
Səni elə sevmişik
Ürəyinizin başında
Yer vermişik.
Çayları dəmləyib,
Yeməkləri bişirmişik.
Mütəkkələri döşəyib,
Xalçaları qurmuşuq.
Gəl desək, gələrsənmi?
Gözüm yaşın silərsənmi?
Axan göz yaşımızı
Yanaqdan silərsənmi?
Əli-Əkbərə qurban olaq,
Gəlib bizi sevindirəcək.
Canımıza can verib,
Gözümüzə nur verib,
Bizə qonaq olub.
Bizə həmdəm olacaq,

Sən də bizə gəlib,
Bizə həmdəm olacaq.
Sevgi xanım gələcək,
Dünyada yüksələcək.
Sonra dərdli könüllərə
Öz sevgisiylə
Sizə sevgi paylayacaq.
İllərlə gözləyib sizi.
Tufanlardan izləyib sizi,
Körpülərdən keçirib sizi,
Dənizlərdə üzdürüb sizi,
Havalarda süzdürüb sizi,
Torpaqlarda gəzdirib sizi,
İldırımlarda çaxdırıb sizi,
Canımıza can edəcəyik,
Biz sizi sevəcəyik.

XII.2008

**QƏLBİMİN SƏSİNİ DİNLƏ**

Dedi: Qəlbinin səsini dinlə,
Hər zaman səninləyəm.
İmanlılar canımız olub,
Hər zaman fəxrimiz olub.
O elə imandır hər könüldə olmaz,
O könülü deyil, könül onu yaradar.
Olmalıdır qəlbi saf, şüşə kimi,
Ki, qırılsa da imanı itməz.
Sənin imanını sevdim,
O üzdən səni seçdim.
Çün gəlməsəydin imana,
Mən də sevməzdim.
Atıb atəşlərə könlümü
Canla sevdim.
Çün, can sənə qurban,

Canı mən yaratdım.
Canı edərəm cana qurban,
Əgər məni unudub imanı itirsən.
Cəhənnəmi həlal edib ataram,
Səni odlara həlal yaratdım.
Əgər qulu sevərsə Allahı candan,
O da canı əsirgəməz canandan.
Cənnəti qurban edər ona,
Canı həlal edər ona.

## BiRi İLHAMIMA İNANMAMIŞDIR

Dedi: Könlündə iman nurunu bəsləsin,
Sonra səni əzizləsin.
Mən də sevərəm onu sənintək,
O zaman bilər qədrini.
İmanı yox, qəlbi pərdəlidir,
Çün saya-saymır səni, dəlidir,
Söylə ona əsl imana gəlsin,
Ya da, ibadətdən əl çəksin.
Etsə də ibadət kordur,
Bəsirət gözüylə görsəydi səni
Görə bilərdi səni.
Hər namaz qılanın yox imanı.
İmana gəlmək üçün
Unutsun dünyanı.

XII.2008

***

Sonra gördüm mən o xanımı,
Sordum əhvalını.
Dedi əsl imana gəlmişəm,
Günahlara tövbə demişəm.

23.03.2011

## HEYKAYƏSİ VAR

Yaralı könlümün heykayəsi var,
Heç kəs bilməz heykayəsini.
Əgər namərdə söyləsən,
Dinləməz könlümün şikayətini.
Sorğu-sual etmişəm,
Yenə haqqa inanmışam.
Əllərimi üzməyib
Haqqa arxalanmışam.
Varmı eşqindən yanan,
Hər işi Haqqa buraxan.
Səksəkədə hər gecə,
Namazı qaçırmağa qorxan.
Dedi: Əhdinə düz olanlar,
Əhvalı bihal olanlar.
Yatıb yuxuya dalmaz,
Rəbbinə inananlar.

Tarixə saldım nəzər,
Aşiqlər bihal gəzər.
İlhamıyla hey danışıb,
Gözü Rəbbini gəzər.
Əziznəm, dolan gəz,
Yaradana eylə ərz.
Verməsə dərmanı,
Əlini üzmə, eylə ərz.
Sən yaracaqsan,
Sualları verəcəksən,
Lütvümü gözləyəcəksən.

2009

## MÖMİNLƏR

Əl çəkib dünyadan,
Qorxub cəfasından.
Bilir yarıda qoyacaq,
Arxayın olmayıb vəfasından.
Əlləri qoynunda qalacaq,
Axirətdə üzüqara olacaq.
Utanıb möminlərdən,
Cəhənnəmdə yanacaq.
Əmrə müntəzir qalıb,
İmanda kamilliyə çatıb.
Dünyanı unudub,
Axirəti qazanıb.
Elə məsum incədir,
İmanda birincidir.
Haqqa bağlı olduğundan,
Rəbbin sevincidir

Sevgi heyrandır sizə,
İnşallah, gəlib qoşular sizə.
Şeytanı qəmləndirib,
Nəğmələr qoşar sizə.

Həsrətinizdəyəm,
Könlü xəstəyəm.
Azadlıqda olsam da,
Sanki məhbəsdəyəm.

Artır qəmi-kədərim,
Haqsızlığı görəndə,
Könlüm olur qəm karvanı,
Zalımları görəndə.

Dedi: Ədalət toxumu əksəm,
Azadlıq verilsə hamıya.
Hər kəs nəsibini görər,
Əkdiyindən pay götürər.

Mömin dünyanın nurudu
Çox kəsləri uludu
Tanrıya qalxan əlləri
Hər gün salam göndərir.

2009

***

Mömünin könlü zindan olar,
Çiçəkləri açmadan solar.
Dünya həyatı ona sıxar,
Aşiqinin yanında olar.

Sağalmar könlümün qəmi çox,
Təbib gəlsə faydası yox.
Cismimi sıxan ruhumun
Çıxmağa hələki imkanı yox.

Mənasız sözləri yazmadım,
Ancaq məntiqə dayandım.
Təmizləyib nəfsimi,
Şükür ki, oyandım.

Anladım boşuna yaşamışam,
Ancaq təcrübə toplamışam.
Əziyyət verən ruhumu,
Heç anlamamışam.

X.2009

## ŞAH ƏSƏRİ

Yaradanın şah əseridir insan,
Var onda çox nöqsan.
Dünyanın ləzzətini
Unutmaq deyil asan.
Yana-yana kül olarsan,
Cəhənnəmdə qalarsan.
Yatıb namazdan qalsan,
Sən də unudularsan.

Rabitəsiz çox danışıb,
Canı odlarda yanıb.
Çıxmayıb heç şəriətdən,
Mömünliyə ucalıb.
Çoxu faiz verəcək,
Özünü haqlı biləcək.
Şəriəti yox sayan,
Əzab nədir biləcək.
Çoxu şərə salacaq,
İmandan, dindən qalacaq.
Şeytanla dostlaşıb,
Çoxuna qara yaxacaq.

X.2009

**BƏLALI CANIM**

Könlüm yüz yerdən oxlanıb,
Yaşamaqdan qalmayıb.
Bəslədiyi güllərin
Tikanıyla oxlanıb.
Könlümü qan eylədi,
Şeytanlığın bildirdi.
Rəbbim tək qoymayıb,
İlhamıyla dindirdi.
Sevsən könlünü al-qan edəcək,
Yolda qoyub gedəcək.
Özündən razı qalıb,
İddiayla öyünəcək.
Sevgimlə Haqqa bağlandım,
Hey eşqindən ağladım.
Bir onu vəfalı sanıb,
İbadətimlə salamladım.

Sevsən təmənnasız Rəbbini,
O da görər məhəbbətini.
Əsirgəməz sevgisini,
Bildirər hörmətini.
Əsla darda saxlamaz,
Namərdə möhtac qoymaz.
Könlünə məlhəm eyləyib,
Günahdan təmizləyib,
İmana gətirib,
Haqq dərgahına yüksəldər.
İmanla, bağlan ona,
Qəlbini şübhələr didib töksə də.
Şeytan min cür tədbirlər töksə də.
Bəsirətə görməyi öyrən,
Dərindən düşünməyi öyrən,
Aldanmayıb dünyaya,
Əməlinlə cənnəti qazan.

## KEŞKƏ BU KEŞKƏLƏR OLMAYAYDI

Bir ömür boyu yandırar,
Candan edib usandırar.
Əlində olmayan bu zamanı,
Söylə kim dayandırar?

Keşkə keşkələr olmayaydı,
Şəriəti pozan olmayaydı.
Hardan gəlib, hara gedəcəyinə
İmanıyla inanaydı.

Vaxtında özünə «dur» deyəydi,
Dərdli könülləri dinləyəydi.
Kor quyuya atılantək,
Səhvi təkrar etməyəydi.

«Əşhədu-ənla-ilahə-illəllah» –
Kəlməsini anlayaydı.
Əsarətdə qalan canı
Şeytandan qurtaraydı.

Hər kəs günahsız doğular,
Yaxşı pis özü anlayar.
Cahana bir də gəlməyəcəyini
Verilən ağılla o anlayar.

Günah edib alçalacaq,
Niyə etdim, deyə ağlayacaq.
Həyata keçməyən arzulara,
Bəlkə heç çatmayacaq.

Eldən-elə çox gəzəcək,
Özünü bəxtəvər biləcək,
Əsl səadətin nə olduğunu
Bəlkə də heç bilməyəcək.

Gec də olsa olsun, deyib,
Yarı yoldan dön, deyib,
Günahla Haqqa gedib,
Cəhənnəmə girmə, deyib.

## KÖNÜL DÜNYAMA SƏYAHƏT

Əvəzi yoxdur dünyada,
Könül dünyama səyahətin.
Sanki qanadlanıb uçuram,
Gözəl rahatlığ tapıram.

Xəyalım gəzir cahanı,
Mənimtək həqiqəti yazan hanı?
Ağrısa da sinəmdə ürək,
Bu yolda yorulmasın gərək.

Sual verib, cavab alıram,
Daha sirləri saxlayıram.
Şəriətə bağlı olanını
Gələcəyə saxlayıram.

Bu yolda mətin dayanmalı,
Könlü odlarda yanmalı,
Kafirlər gözündə qınanmayıb,
İmanlı gözündə
Sevgiyə layiq olmalıyam.

Həqiqətlə qalıram baş-başa,
Vaxtı keçirmirəm boşa,
Oxuyub ibrət alsın,
Cənnəti sevgisiylə qazansın.

## HAQQ YOLU

Dedi: Haqq yolundan çıxan bəndə,
Nəfsi onu salıb bəndə.
Haqdan çıxdığı üçün
Rəbbim salıb kəməndə.

İbrət götürməyib
Yenə düşüb kəməndə.
Rəbbim gözləyir
Tövbə edə bəndə.
Etməsə tövbə
Görüşər cəhənnəmdə.

XII.2008

## ORUCUN SAVABINI SAYMAQLA QURTARAN DEYİL

Orucun savabını saymaqla qurtarmaz,
Oruc tutan peşiman olmaz.
Nəfsini enəcək orucla,
Ruhunu təmizləyəcək namazla.
Atacaq eyş-işrəti,
Görəcək bərəkəti,
Kamilliyə çatacaq,
Özünü tanıyacaq.
Könlündəki inciləri
Aşikara çıxaraq
Zalım olanı.
Uzaqdan tanıyacaq.
Hər yerdə doğru olacaq.
Sındırmayıb ürəkləri,
Heç kəsi aldatmayacaq.
Şəriəti öyrənəcək,
Ona əməl edəcək.
Viran olan könülləri,
Özü abad edəcək.
Tox olacaq gözləri
Boş qalsa da əli.
Ah-fəryad etməyəcək,
Təmkinlə gözləyəcək.
Zəmanə ilə yarışacaq,
Çoxunu yolda qoyacaq.
Sahib olub dilinə,
Çox sirri açmayacaq.
Yaşaracaq gözləri,
Düz olacaq sözləri,

Şərlə işi olmayacaq,
Heç kəsi aldatmayacaq.
Nadir incitək
Hər yerdə tanınacaq.
Aşiq olub Allaha,
Xəyalıyla danışacaq.
Hər gün ibadət edib,
Cənnəti qazanacaq.
Orucun savabını
Saymaqla qurtarmayacaq.
Dediyi kəlmələr,
Dünyada yadigar qalacaq.
Özümüzü təslim edək,
Yaradana sevgi göndərək.
Zirvələrə qalxıb
Ordan heç enməyək.
Sevgi, inşallah
Zirvələri fəth edəcək,
Sevgi toxumu əkəcək.
Yorulmayıb bu yoldan,
İbadətə səsləyəcək.

## NAMAZDA ŞEYTANIN FİTVASI

Dedi: Gəlməyib sən oyuna,
Düşməyəsən toruna.
Dörd yanını sarıb,
Səni hey çaşdırıb.

Hər an səni gözləyir,
Niyə dönmür, deyir.
Özü bəhsə girib,
Haqqa and içib.

Adəmə düşmən olub,
Cənnətdən qovulub.
Çoxunu günahkar edib,
Cəhənnəmi doldurub.

İndi dost olacaq,
Qiyamətdə tanımayacaq.
Hər yerdə vəfasız olub,
Yarı yolda qoyacaq.

İmanda inadkar olmalı,
Kələyinə uymamalı,
Sonra peşiman olub,
Zülümlərdə qalmamalı.

Sənlə bəhsə girəcək,
Tərsliyi ilə öyünəcək,
Allahı çox sevənləri,
Qəsdən döndərəcək.

Tərslikdə tayı yoxdur,
Çoxunun xəbəri yoxdur.
Ona təslim olanın,
Cənnətdə yeri yoxdur.

Çox vəsvəsə verəcək,
Heç ağlına gəlməyəcək,
Özü kənarda qalıb,
Sənin halına güləcək.

Onunla hey vuruşuram,
Məni enməyə qoymuram.
Allahdan ilham alıb,
Fitnəsindən xəbərdar oluram.

## ƏZAN

Söz xəzinəsinə şükür eylədim,
Deyiləni sizə göndərdim.
Məndən yadigar qalsın,
Rəhmətlər oxunsun.

Ruhum sizlə olacaq,
Sizə dualar oxuyacaq.
Məni yad edənləri,
Haqq yoluna çağıracaq.

Dedi: Dünya sizi aldadacaq,
Əzablara hey salacaq.
Hər gün əzan verilib,
İbadətə çağıracaq.

Bir anlığa qulaq as,
Nə gözəldir ondakı avaz,
Qurtuluş məndədir deyir,
Sizi Haqqa səsləyir.

Görmədim Haqq yolunda azan,
Könlünü dilləndirsin əzan,
Qurtuluş məndədir deyir,
Duysun hər bir əzan.

Aqil sənə deyəcək,
Onu dinlə deyəcək.
Şeytan yoldan çıxarıb,
İşin vardır deyəcək.

İşimiz hər zaman var,
O heç qurtarmayacaq,
İşi bəhanə edənlər,
İbadətdən qalacaq.

İbadətinçün Sevgi gərək,
Bu yolda  usanmasın gərək.
Əsl aşiq olanlar,
Əzablara dözsün gərək.

VIII.2010

**GİCİTKAN**

Bağçalarda, bağlarda,
Əlçatmaz dağlarda,
Buz kimi bulaqlarda,
Həm də yol kənarında,
Hər yerdə bitib,
Dərəni iynələyib.
Təbabət çox yazıb
Şəfalı olduğunu.
Saf-çürük etməyiblər
Çoxunu bilməyiblər.
Hələ neçə illər lazım,
Çözə bilmək lazım.
Bildikləri azdır,
Şəfasını bilmək lazım.
Tarixə qarışıbdır,
Çoxu kəşf etdim deyib.
Sualları tapmayıb,
Hələ neçə kəşf var deyib.

Elminiz az olub,
Hələ tamamlanmayıb.
Nadir incitək
Hələ tapılmayıb.
Hələ neçə övladın
Kəşf edəcək,
Bilmədiyimiz şəfaları,
Bizə gətirəcək.
İldən-ilə öyrənilir,
Bizə müjdələr gətirir.
Təbabətin sirrini
Heç kəs öyrənməyib.
Yaradan gizli saxlar,
Hər kəsə açıqlamaz.
Elm öyrənən,
Onu başa çıxarmaz.
Pillə-pillə öyrənirik,
Hər şey tamam deyirik.
Yaradana nədən,
Az şükür edirik?
Zirvədə istərəm olmaq,
Tapıb söz xəzinəsinin
Sevgimlə qapısını
Açmaq istərəm.
Nə qədər yazsam doymaram,
Çətinlikdən qorxmaram.
Yadigarım bir xəzinədir,
Açarını tapa biləsən.
Sevgi ilə topladığımin
Sirrini aça biləsən.
Haqqdan gəlib mənə ilham,
Varsa səndə inam,

Açıb oxusan,
Olar dərdinə dərman.
Sanmayın yox olacağam,
Şeirlərimdə yaşayacam.
Məni sevən könüllərdə
Əbədi qalacağam.
Kiçik ürəyə sığmaz bu sevgi,
Paylayacam dünyaya sevgi.
Yaradandan güc alıb.
Əbədi sevgimi qoyacam,
Çoxu sevgidən güc alacaq.
Haqq aşiqi olub,
Dərgahına ucalacaq.
Aşiqlərdən güc almışam,
Aşiqliyə ucalmışam.
Dözüb dünyanın qəminə,
Səbri Haqqdan almışam.
Bakı küləyi tüğyan eyləyir,
Gecənin bağrını dəlib keçir.
Çox kəs uyuyub, Sevgisə yazır,
Yazdığını yadigar qoyur.
Naz-nemət içindəyəm,
Yoxsa ehtiyac içindəyəm?!
Nəfsim elə toxdur ki,
Sanki dövlət içindəyəm.
Həm varlıq, həm darlıq
Gördüm dünyada,
Xoşbəxtlik gətirmədi.
Elə ki, imana gəldim
Məndən varlı yoxdu dünyada.
Çox axtardım, gec tapdım,
Gülmədi qara baxtım.

Gəzdim gecə-gündüz
Yarın sorağında.
Dedi: çox pünhandır,
Hər halın ona əyandır.
O da sənə aşiq olub,
Oduna yanandır.
Sevən-sevəni görməsən,
Xoşbəxt deyilməz?!
Əl yetməyib heç yerə,
Könlü o gülməz.
Dedi: Suları dərin olub,
Ürəyin dərdlə dolub,
Məni sevən aşiqlərin
Halı elə-belə olub.
Şikayət etməyirəm,
Mən nə karəyəm.
Səni sevən gündən
Elə dəli-divanəyəm.

V.2009

**ZALIMIN ZÜLMÜ**

Alacaq Rəbbim qisasını
Gəstərəcək haqqa əyilməməyi.
Ahu-fəryadı göyə ucalacaq,
Məzluma zülm edən alçalacaq.
Zaman gəlib keçəcək,
Bunlar bir gün bitəcək.
Zülmə uğrayan səbr edərsə,
Haqqa yüksələcək.

Hz: Nuh övladını əhv etsin deyə,
Tanrıya üz tutdu belə.
İradə azaddır deyə.
Əhv etmədi onu.

Rəbbim çox səbr edəndi,
Haqq yoluna gəl deyəndi.
Qulu yoluna gəlməsə,
O da zülm edəndi.

Zalımı bəladan qurtaracaq,
Dərs al deyə, utandıracaq.
İmkan verib səbr edəcək.
Bir gün zülmə düşürəcək.

Röyada işarə göndərəcək,
İbrət alsın düşündürəcək.
Daşqəlbli imana gəlməyəcək,
Haqqa dönməyəcək.

Baş-gözünə çox vuracaq,
Faydası heç olmayacaq.
Etdiyi günahları bir gün
Aşikara çıxacaq.

Gəzəcək eli, obanı,
Tapmayacaq dərmanı.
Küsdürdüyü ananın
Ahı tutacaq onu.

Haqq yoluna səsləyərdi,
Yoldan dön deyərdi.
Şeytana dost olub,
Həyatdan küsdürərdi.

Sanma cəzasız qalacaq,
Kefdə-damaqda olacaq,
Etdiyi zülümün,
Cəzasını alacaq.

Ağılı ibrət alacaq,
Səhvi təkrarlamayacaq,
Zülümdə qalıb,
Allaha yalvarmayacaq.

İbadətlə dönəcək,
Günahları siləcək,
Şeytan güc gəlsə,
İmanıyla enəcək.

Aldım Haqqdan ilhamı,
Bunu duysun hamı.
Siz də tövbə edin,
Yaşatsın dünyanı.

Rəbbim mərhəmətlidi,
Sevdiyi quluna hörmətlidi,
Qulu imana gəlsə,
Onun üzünü güldürsə.

Ömrümüz çox azdır,
Ömrümüzü zay etməyək.
Sevgi bağında güllər əkib,
Haqq dərgahına yüksələk.

Zalim haqq yoluna gəlsin,
Nəfsi orucla ensin.
Tanrım əhv et, deyə
İbadətiylə sevindirsin.

Zülm edərsə insan insana,
Çıxararmı nurlu sabaha?
Dünyada əzaba salıb,
Cəhənnəmi məkah edər ona.

Dünyanın yükünü çəkirəm,
Nə olacağını düşünürəm.
Qiyamətin hər an olacağını,
Hər an gözləyirəm.

Yaşayıram hər kəsin acısını könlümdə,
Yaşaya bilmirəm bu dünyanın içində.
Dünya mənə dar gəlir,
Yaşaya bilmirəm bu qəfəsin içində.

Yeni bəlalar gəlir,
Çoxu düşünməyir.
Başqasına baxıb ibrət almır,
Sabah başına gələcəyinə inanmır.

Gərək yox görsün gözüylə,
İbrət alsın dözümüylə,
Dünyanın sahibsiz olmadığını,
Anlasın hər qəzəbiylə.



## ALLAH AŞİQLƏRİNƏ

Könlüm gültək açır,
Sorağını alınca.
Halımdan onlar anlar,
Eşqi yüksək sananlar.

Rəhmətlə anılır onlar,
Gün sevgisi, qalıb dünyada.
Könüldən könülə gedən yolda,
Körpü qurub onlar.

Bilib cismi gedəndir,
Ancaq sevgisi qalacaq.
Allah aşiqlərinə,
Rəhmət oxuyacaq.

Gültək açıb könülləri,
Həsrət qalıb yara,
Yarda ona aşiqdir,
Könül olubdu yara.

Bu halımdan bezmir,
Hey çırpınıb durur.
Özləri seçib bu yolu,
Arada zaman durub.

Gözləyir hey vüsalını,
Hər yerdə soraqlayır.
Heç yerdə tapmayıb,
Könlündə arayır.

Yorğun olub yollarda,
Adına nəğmələr qoşur,
Sevgisinə layiq olmaq üçün,
Günlərlə savaşır.

Çox şey istəməyir,
Könlü sevgi ilə doludur.
Hər şey dünyada qalacaq,
Sevgisi yolunda işıq saçacaq.

Qorxuram imtahandan,
Birdən kəsilərəm,
Xəcalət qalıb yanında,
Savabım olmaz deyirəm.

Yana-yana qalıb könül,
Elə qəmim azdır deyir.
Savabın çox olsun ki,
Sevgim azalmasın deyir.

İnşallah sevgimlə gələcəyəm,
Savabla yolumu bəzəcəyəm,
Lənət edib zalımlara,
Sənə ümid edəcəyəm.

Çıxmaram şərətdən,
Düşmərəm hörmətdən,
Bəzi nöqsanları,
Silərəm dəftərdən.

Dedi: Yar elə yaraşıqdır,
Güllər sənə aşıqdır,
Allahı sevənlər,
Elə əsl aşiqdir.

Rəbbin çox mərhəmətlidi,
Sevəni giymətləndirir,
Verib arzu diləklərin,
Yaşamağa həvəsləndirir.

## YA RƏBBİM, KİMLƏRƏ BƏDAHƏTƏN HİKMƏTLİ ŞEİR DEMƏK NƏSİB OLUR

Dedi: Tarixə sal bir nəzər,
Orda var hər hünər.
Eyş-işrəti atanlara,
Hikmətlər deyilər.
Çox şairlər görmüşük,
Yarı yolda qalıb.
Sirləri açıb
Çox cəza alıb.
Haqqın sirrini
Açma heç kəsə,
Möhtac qalarsan
Şeytana, xəbisə.
Gözləyib gələcəyi,
Sənə olan sözümü,
Yaymayıb heç kəsə,
Özündə həbs eylə.

## BAYATILAR

Əzizim, gedər, gəlməz,
Bəlkə də gedər, gəlməz,
Sahıb ol dilinə,
İlhamın gedər, gəlməz.
***
Sahib olub dilinə,
Deyiləni açmayasan.
Yenə peşiman olub,
Tövbə etməsən.
***
Sən ilhamınla yazansan,
Rabitəsiz danışansan,
Yüz ölçüb, bir biçsən,
Aləmlərdə tanınarsan.
***
Səni gətirmişik ilhama,
Can çox söylər canana.
Sənin kimi şeir yazan,
Gəlməyib bu cahana.
***
Mən aşiqəm, gələsən,
Meyvəsindən dərəsən.
Aşiqlərin içində
Sevəsən, seviləsən.
***
Taleyinə düşən payı,
Əzəldən yazılan payı,
Nartək incələnib,
Heç kəsə deyilməyib.

***

«La ilahə illəllah» kəlməsini,
Unudana ar olur.
Yatıb yuxuya qalanları
Əzan haqqa çağırır.

***

Carçı car çəkəcək,
Hər yerdə səslər eşidiləcək.
Yatıb yuxuya qalanlar,
Xəcalət çəkəcək.

***

Yox sanıb Tanrını,
Əlləri boşda qalıblar.
Hər yerdə meyitlər,
Ruzidən məhrum olublar.

***

Sual-cavab etmisən,
Bəzisini yox etmisən.
Sirləri açmamaq üçün
Dilini lal etmisən.

***

Məndən üz döndərsən,
Könlüm qəmdən üzülər.
Mənə həmdəm qələmim,
Dəftərdən üz döndərər.

***

Yar-elə yaraşıqdı,
Güllər sənə aşiqdi,
Allahı sevən kəslər,
Elə əsl aşiqdir.

***

***Ya Rəbbim, bəzi alimlər ilhamın insana Allahla yanaşı mələklər şeytan və sairədən gəldiyini yazırlar?***

Dedi: Çox şübhədə qalmısan,
Soruşmağa utanmısan.
Çox əzab çəkib,
İndi qərara almısan.

Əmrə müntəzir olmusan,
İlhamınla yazmısan.
Unudub sən Allahı,
Cəbrayıl sanmısan.

Sən hələ yazmalısan,
Şəriəti tamamlamalısan.
Dəri-qabıqdan çıxıb,
İlhamınla danışmalısan.

Tərifə gərək yox,
Dönsə əgər, gərək yox.
İlhamı verən Allahdan
Başqasına gərək yox.

Saxta olan işləri,
Dinimizdən saymayacağıq.
Sual edib çox kəsi,
İslamdan çıxaracağıq.

Ət dırnaqla bir olub,
Cəhalətdə çox qalıb.
Əmrə tabe olmayan,
Yatıb yuxuya qalıb.

Qurtulub hər beladan,
Ruhullah düşüb havadan. (surə 43.61)
Yaşlı qalıb gözləri,
Yox olacaq nəbizləri.

Əlliyə-yüzə baxmaz tanrı,
Əlinə dəyməmiş cananın əli,
«Əşhədu ənla ilahə illəllah»
Deyən kimsəni, qoymaz kimsəsiz.

## ŞƏRABIN İMANA TƏSİRİ BİLMƏK İSTƏRDİM

Dedi:Çoxu ona eylədi həvəs,
Canına can eylədi əbəs.
Solmuş arzu-diləkləri,
Həyata keçirmədi bir kəs.

Nazıyla çox oynadı,
Dərdrinə dərman saydı.
Məstlik keçən zaman,
Həmin adam oldular.

Quranda pislənib.
İmana gəl, deyilib.
Qocalığı gözləyib,
Tövbə etmək istəyib.

Ömür əlində deyil,
Qocalığı gözləmə,
Səni illərdən qoyan,
Oyan, ey insan, oyan.

Nəfsinə sus, deməli,
Orucu gücləndirməli.
Səni sevənin
Üzünü güldürməli.

## AQİLLƏ HİKMƏT BİRLƏŞMƏSƏ ƏGƏR NƏLƏR OLAR

Dedi:Ağılla hikmət birləşməsə,
Dünyada fəsadlar törər.
Atar dünyada hikməti,
Mənəmlik tutar gözü.

«La ilahə illəllahi» unudar,
Olmaz-əlindən tutan,
Unudar əhdi, peymanı,
Hikmət sahibi unudar onu.

Özünü ağıllı sanıb,
Hikməti – dinləməz.
Kortək quyuda qalıb,
Səhvini düzəltməz.

Naz-nemət içində üzəcək,
Özünə əhsən deyəcək,
Ağlına arxayın olub,
Hikməti görməyəcək.

Yaralı quştək inləyəcək,
Tək özünə güvənəcək.
Oxumayıb heç şəriəti,
Ondan üz döndərəcək.

Hikmət nədir bilməyəcək,
Onu boş söz biləcək.
Hardan gəlib, hara getdiyini
Öz borcunu verməyəcək.

Saralacaq axşam, səhər,
Aşına qatılacaq zəhər.
Baş əyməyib Yaradana,
Ömrü olacaq hədər.

Şöhrəti çox sevəcək,
Yüksək mərtəbəyə yüksələcək.
Tanrı borcunu verməyən,
Aşağı mərtəbəyə enəcək.

Hikmətdən bir damla yazdım,
Onunla Haqqa çağırdım.
Haqqdan alıb ilham,
Onu sizə çatdırdım.

Hikməti ancaq ariflər anlar,
Hər an sevgiylə anar.
Yazıb könül dəftərinə,
Onu hər an oxuyar.

Sevgi sevgiyilə səni anacaq,
Hikmət dəryasına qərq olacaq.
Ordan hikmətli sözlər gətirib,
Onu dünyaya çatdıracaq.

Yazmadım dəftərdə qalsın,
Yazdım aləmə səs salsın.
Böyük Yaradanın hikməti
Ürəyinizdə əbədi qalsın.

Sevirəm haqqın böyüklüyünü,
Mənə  sonsuz eşqini.
Açıb hikmət xəzinəsini,
Saysız yaz deməsini.

İlhamımla hey danışıram,
Suala cavab alıram.
Eşq ilə böyük könlümü
Əbədi, dünyada qoyuram.

Könlümdə sevgi yaşar,
Sevgisiylə maniələr aşar.
Qırıb aradan zəncirləri,
Sevdiyi Yaradana qoşar.

## YA RƏBBİM, NƏDƏN NAMAZ QILIB ANCAQ ƏMƏLİ DÜZ OLMURLAR

Dedi:Namaz vacib olub,
Hər kəsə buyrulub.
Onu qılmayan,
Cəhənnəmlik olub.

Çoxusu zalım olub,
Haqq deyənə inanmayıb.
Dünyanı əyləncə bilib,
Axirəti qazanmayıb.

Keçib yuxarı başa,
Hər işi bir tamaşa.
Şeytanla birləşib,
Əməli düşünməyib.

Nəzarətsiz qalmayıb,
İmanı tamamlayıb.
Əməli yalan olanlar,
Cənnəti qazanmayıb.

Bəylik edib hər yerdə,
Əməl dəftərlərində,
Hamısı yazılıb,
Üzünə oxunacaq.

Özünü mömin göstərib,
Şəriəti öyrənib.
İmanı zəif olub,
Nəfsini enməyib.

Hər şeydən var xəbəri,
Şeytan olub rəhbəri.
Taleləri mən bilib,
Quranda göstərilməyib.

Yerlə-yeksan olacaq,
Canını dərd alacaq.
İstixarə açanlar,
Zülümdə qalacaq.

Onunla pul qazanıb,
Çoxunu razı salıb.
Allahın qəzəbindən
Heç xəbəri olmayıb.

İmanlı qorxacaq,
Quranı oxuyacaq.
Öyüd-nəsihət götürüb,
Aləmə yayacaq.

Əməli düz olanın,
Tərifə layiq olanın,
Yeri cənnət olacaq,
Əzabdan qurtulacaq.

Abu-həyat suyu içər,
Ölüm ondan yan keçər.
Mələklərlə birlikdə,
Cənnətdə məkan edər.

Saralıb-solmayacaq,
Cəhənnəmdə yanmayacaq.
Əməli düz olanlar,
Çox kəsə örnək olacaq.

Kim qılarsa namazı,
Yaradanı edər razı.
Cəhənnəmdə yanmayıb,
Cənnətə qalmaz tamarzı.

Çox çək-çevir edib,
Səni yalançı bilib.
Görməyib səhvləri,
Özünü haqlı bilib.

Səni mən seçmişəm,
Canıma can etmişəm,
Zülümlərini görüb,
Şəhidlik vermişəm.

Şahidi mən özüməm,
İlhamımla deyənəm.
Məni sevən qulların
Hayanı da özüməm.

Gələcəyi mən bilirəm,
Sirrimi gizləyirəm.
Haqqa düz olanları,
Mən özüm seçirəm.

Canın odlarda yanıb,
Çoxu sənə inanmayıb.
Əməli düz olanlar
Heç nədən qorxmayıb.

İddiaları böyük olub,
Ürəyim təmiz olub,
Namaz qılmasam da,
Cənnət yerim olub.

Ürəyə, nəfsə, əmələ
Kim eyləsə əməl,
Yeri cənnət olacaq,
Cəhənnəmdən qurtulacaq.

Sən eyləmə çox təlaş,
İmanlıyla ol sirdaş.
Sənə kəm baxana,
Olma sirdaş.

Ürəyin qalıb qəfəsdə,
Canın məhbəsdə.
Əməlim azdır, deyib
İmanın güclənib.

Tərifdən çox qorxmusan,
Özünü qınamısan.
Yata bilməyib,
Elə hey yazmısan.

Haqq sözündə yalan olmaz,
Haqsızlıq yerdə qalmaz.
Zaman keçər, il dolanar,
Hər şey belə qalmaz.

Biganə bilməz məhəbbət,
Ona boş gələr bu həqiqət.
Qəflət yuxusunda olan,
Bir gün ayılacaq nəhayət.

Əzib başa keçən
Taxtından tez düşəcək.
Tarixdə qalmayıb adı,
Yaddaşlardan silinəcək.

İşi haqqa buraxan,
Əli heç yerə çatmayan.
Yarı yolda qalmayacaq,
Dünyaya tanınacaq.

Gör-götür dünyası,
Könlüm qəm dəryasıdı.
Yüz təbib gəlsə də,
Əlacı olmayasıdı.

Zülümlərdə qalan canım,
Çox kəsi düşünən canım,
Qiyamət gələn zaman,
Dostları ayıran canım.

Dünya qədər dərdim var,
Dərya qədər səbrim var,
Yuxusuz gecələrimdə
Dərdimə şərikim var.

Yanan ürəyinin şahidi mənəm,
Yuxusuz gecələrin dərmanı mənəm.
Əlində qələm yatan,
Söyləyən ilhamı mənəm.

İlham nədir bilməz,
Bəsirətdə görməz,
Şairin Haqdan gəldiyini
Heç özləri bilməz.

İlhamsız yaza bilmərəm,
Taleyi poza bilmərəm.
Cənnət ya cəhənnəm
Qisməti deyə bilmərəm.

Dedi:Təzə-tər güllər kimi
Çox gözəl ətiri var.
Əmrə tabe olanların
Çoxlu müjdələri var.

Dedim:Keşkə imanda kamil olaydım,
İlhamımı saxlayaydım.
Sevginə layiq olub,
Cənnəti qazanaydım.

VI.2010

## YA RƏBBİM ŞƏRİ-ŞEYTANDAN QORUNMAQ ÜÇÜN NƏ ETMƏK LAZIMDIR

Dedi:Namərdlərin çoxusu
İnsanları qorxudar.
Dua edən zaman
Səndən gen durar.

Əmrlə tabe olub,
Əzabda çox yanıb.
Dua oxuyan zaman
Torda qalıb.

Ətini çəksən şişə,
Dönüb vərdişə.
Sən hər gecə,
Dua et Rəbbinə.

Taleyin işinə bir bax,
Sənə verib çox soraq.
Yatıb yuxuya qalsan,
Səndə olmaz ixtiyar.

Əmrə tabe olub,
Yaradandan qorxub.
Yüz ölçüb, bir biçənin
Duasından qorxub.

Hamısı keçib işə,
Gəzib dünyanı gizlicə.
Lazım gəlsə hər gecə,
Azdırar çox kəsi gizlicə.

Əmrə müntəzir dayanıb,
Çıxsa odda yanıb.
Zalım qəlbli insanın
Qanında dayanıb.

Əlinə fürsət keçəcək,
Sənə güc gələcək.
Aləmlərin Rəbbinə
Səni hey pisləyəcək.

Yazıb-yaratmalısan,
Arzulara çatmalısan.
Sən yazan zaman
«Ayətül-kürsü»nü oxumalısan.

Sən nazik bədəndəsən,
İstilərdən qəmdəsən.
Əlacı olan şeyin
Dərmanını öyrənənsən.

Soyuq olub gecələr,
Çoxu dərddən incələr.
Dünyadakı birincilər
Dərmanı Haqdan öyrənər.

## CƏMİ AĞIR XƏSTƏLİKLƏRİN DƏRMANI NƏDİR

Dedi:Yarım qalıb canı,
İltihab tutubdur hər yanı.
Gəzib ora-buranı,
Tapılmayıb dərmanı.

Əlacı imandadır,
Xəstəykən dərmandadır.
Yüz təbib gəlsə də,
Haqqa sığınandadır.

Xəstə özü can istər,
Allahdan şəfa istər.
Qılsa əgər namazı,
Əməlini düz edə.

İman inam böyük qüvvədi,
Onda nəfsi enmədi.
Taleyi əlində olmayanın,
Haqqa inam böyük qüvvədi.

Bu yolda mətin dayansa,
Şəfa verər böyük Yaradan.
Ətrafa bax durmadan,
Göstər Haqq yolunu yorulmadan.

İmansıza nə qədər etsən nəsihət.
Ona boş gələcək bu həqiqət.
İmanlıya söylə sözü durmadan,
Şəfasın verər böyük Yaradan.

## YA RƏBBİM, İLHAM NƏDİR

Dedi:İlham könül səsidir,
Ariflərin nəğməsidir.
Yüz ölçüb, bir biçənə
Haqqın daim səsidir.

Könülü qüştək inləyər,
Çox söz söylənər.
Yata bilməyib gecələri
İlhamıyla öyrənər. (surə 12.68)

Əzəldən belədir dünyanın işi,
Kim olarsa Allah aşiqi,
Qisməti əzablar olar,
Haqlıykən  haqsız tanınar.

İmanı az olanın,
İlhamı da az olar.
Yaradanı unudub
Dünyaya qul olar.

Səni gətirmişik ilhama,
Can çox söz söylər canana.
Sənin kimi şeir yazan,
Gəlməyib hələ cahana.

Şərəfi, şanı atıb çoxusu,
Namərdlik olub arzusu.
Mərd baxıb köks ötürər,
Dərdi ürəyinə tökər.

İman çoxala ilham çoxalar,
Səni həyata bağlayar.
İmanı itirsən əgər,
İlham səndən gen gəzər.

Günahda qalarsa insan,
Tapılmaz halına yanan.
Əliboş gedər dünyadan,
Cəhənnəmi edər məkan.

Toplasan dünyada inciləri,
İmanı itirsə peşiman olarsan
Yazdığı şeirləri oxuyub,
Pərişan olarsan.

## NƏDƏN KƏLBƏLADA HƏLƏ DƏ ŞƏHİD OLURLAR

Görəsən günahları nədir,
On dörd əsrdir şəhid olurlar?
Sünni, şiə yola getməz,
Hər kəs özünü haqlı bilər.
İllər boyu eşidirəm,
Neçə kəlbəlalı öldü deyirlər.
Baş alıb gedən qırğından,
Didərgin düşürlər.
Əllərində olsaydı, divarları sökərdilər,
İnsan da qoymayıb qırıb, tökərdilər.
Əzan gələn zaman,

Qulaqlarına civə tökərdilər.
Xaricin çox oyunu var,
Dində hər cür ayrılığı var.
Bir məhzəbdən olmayanın,
Biri-birinə qırdırmağı var.
Bir yandan doğulub,
Bir yandan qırılır,
Bir-birini qırır
Şeytana qul olanlar,
Belə kam alır.
Siz bir-birinizdənsiniz,
İslama düşmənsiniz,
Məzhəbi bəhanə gətirən,
Kafirlərsiniz.
Əməldə bir deyilsiniz,
Ruhu xəstə kəslərsiniz.
Boş yerə qan tökən,
Terroristlərsiniz!
Düşünüb bunları yazdım,
Sizi haqqa çağırdım.
Tanrının söylədiyini
Qələmə aldım.
Hələ zaman var,
İmana, dinə gəl,
Tökmə qardaş qanı,
Əhli-beyt islamı yaşadıb,
Dünyaya tanıdıb.
Səpələnib hər yerə,
Vətənsiz qalıbdır.

Bəlalar çoxalacaq,
Sizi qoynuna alacaq.
Fitva verən kafirlər
Sizi atıb qaçacaq.
Yuxuya qalmamışam,
Deyiləni yazmışam.
Ürəyimi atəşə atıb,
Dərddən qoyrulmuşam.
Yaratdı dünyaya gəlin,
Layiqli ibadət edin.
Demədi nahaqdan qan axıdıb,
Müsəlmana ləkə deyin
İmanı-dini itirib deyin,
İslam nədir bilməyib.
Sünnü-şiə bəhanə edib,
İslamı öyrənməyib.
Günahlar yerdə qalmaz.
Haqq sözündə yalan olmaz.

Dahilər çox az yazdılar,
Şahlara arxalandılar.
Mən də haqqa sığınmışam,
Əl çəkmərəm Haqq işimdən!
Dünyada oxunacaq,
Şəriətlə gedən çoxalıb,
İslam dünyanı tutacaq.

VI.2010

****

***Kərbəla torpağında ziyarətə gedərkən terroristlər tərəfindən şəhid olan Bakının Məştəğa kəndindən olan 16 yaşlı Leyla xanıma***

Körpə fidan tək böyüdüb
Anan boyunla fəxr edib.
Kərbəla ziyarətinə yola salıb,
Arzusu ürəyində qalıb.

Təzə-tər qönçəsən
Şəhidlər içində.
Şəhidlərlə birlikdə
Sevilirsən sən də.

Doğmaların qan ağlayır,
Yasını tutub qara bağlayır.
Əli yetməyib qəbrinə,
Sənə yeni qəbir saxlayıb.

Yazda güllər açacaq,
Qoxusu aləmə yayılacaq.
Kərbəla torpağında,
Adına dualar oxunacaq.

Üzünü görməmişəm,
Göz yaşı tökmüşəm.
Adına dua oxuyub,
Rəhmət demişəm.

Haqq deyəni yazmışam,
Aşiqliyə ucalmışam.
Əlim yetməyib, sənə
Ətrini uzaqdan almışam.

Hər kəs şəhid ola bilməz,
İmanda yüksələ bilməz.
Allah sevdiyi şəhidi,
Hər kəslə eyni bilməz.

Yazmaqdan doyma,
Ziyarətə hazırlaşaram.
Qəbrini ziayrət edib,
Dualar oxuyaram.

Mən də çox yaralıyam,
Sinəsi çox dağlıyam.
Aşiqlərin içində
Çox ağlayanıyam.

Sıra mənə gələcək,
Mən də şəhid olacam.
Zülümdə qalan canım,
Axirətə qovuşacam.

Dedi:İmanlıyla savaşan,
Atəşlərdə yanacaq.
Allah aşiqlərindən
Sorular sorulmayacaq.

II.2010

## HİCAB

Əsl zinət olub,
Bağlanıb, ya bağlanmayıb.
Qismət olar, deyə –
Arzusuyla dayanıb.

Örtənləri sağ olsun,
Yarı yolda qalmasın.
Açaram, deyə –
Arzusuyla yanmasın.

Bəzisi açmaq istəyib,
Daha bəsdir, deyib.
Ya örtüm, ya örtməyim,
Yarı yolda qalıb.

Hicabla bəyənilib,
Taleyi Allah verib.
Hicab örtməyən,
Günahkar bilinib.

Bəzisi zalım olub,
Hicaba bağlanıb,
Mömin olduğunu
Aləmə tanıdıb.

Günahı pərdələyib,
Cəhənnəmə girib,
Sabah nə olacaq,
Haqqı düşünməyib.

Mən də əməl eyləyib,
Haqq yazanla gedib.
Hicablı, ya hicabsız.
Mənə əmr edilməyib.

İradəsi azaddır,
Hər kəsin əlindədir,
Cənnət, ya cəhənnəm,
Özü seçər əlbət.

Kim örtərsə hicabı,
Eşidiləcək duaları.
Zülümdən qurtarıb,
Cənnətə layiq olub,

Səbrlə dyayanacaq.
Yarı yolda qalmayıb,
Səadətə çatacaq.

V.2009

## HİCABSIZ XANIMLARA

Könlünü dinləyib,
Haqq sözünə inanıb,
Şəriəti oxuyub,
Cavabı orda tapıb,
Günahdan qurtarıb,
Səadətə çatıb,
Qadına hicab yaraşıb.
Zinadan uzaq olub,
Təhlükədən qorunub,
Çoxuna söz yeri olub,
Çox yeri açıq qoyub,
Yarı yolda qalmayın,
Hicabsız qalıb,
Günahkar olmayın.
Bəzək-düzəyi çox sevir,
Qadına gərək bilirsiniz.
Hər yeri açıq qoyub,
Onunla öyünürsünüz.
Mən də bir qadıntək,
Çox bəzənmişəm,
Acı nəticəsini görmüşəm.
Şəriətə əməl edib,

Hicaba mən keçmişəm.
Güllərtək gözəlsiniz,
Hicabla, ya hicabsız,
Hicab bir silahdır.

Namərddən qoruyacaq.
Günahdan qurtarıb,
Sizə arxa duracaq.
Kəsərli qılınctək
Çox dilləri kəsəcək.
Sizə kəm baxanın
Arasına keçəcək.
Dilləri lal olacaq,
Gözüylə axtaracaq.
Tapa bilməyib nöqsan,
Güclü olduğunu anlayacaq.
Nə qədər şəriətə əməl etsən,
Hicabsız qadın güclü deyil.
Saçlarını töküb onla öyünsə,
Tanrı gözündə mömin deyil.
Hər yerdən göz qoyacaq,
Yaşlı, cavan anlamayacaq.
İstəsən də, istəməsən də
Qanını qaraldacaq.
Əməlində ədalətli olsan,
Tanrı gözündə mələk olarsan.
Aldanmayıb şeytan sözünə,
Cənnəti əməlinlə qazanasan.
Gördüm həyatın hər üzünü,

Haqq sözünün bildim düzünü.
Dünyada yormayıb özümü,
Şəriətə sərf etdim ömrümü.
İnsanıq, var nöqsanımız,
Nöqsanı təkrarlamayaq.
Saf-çürük edib nöqsanı,
Təkrar etməyək günahı.
İlhamı alıb Haqdan,
Sizə yardım hicabdan.
İmanlı anlayacaq.
Səhv təkrarlamayacaq.
Bilirəm, çətindir hicaba keçmək,
Açıq-saçıqlığı tərk etmək.
İnsan nəyə eyləsə adət,
Onla gedəcək nəhayət.
Dama-dama göl olacaq,
Adətlər çoxalacaq.
Rəbbim güc verib,
Günahdan qurtaracaq.
Zülfünlə salma çoxunu tora,
Özün də düşmə tora.
At kənara mənəmliyi,
Görərsən həqiqəti.
Mənəm deyən yarıda qaldı,
İmanlı məqama çatdı.
Yüksəlib aşiqlik zirvəsinə,
İlhamıyla danışdı.
Təmiz qəlblə yanaşın canlıya,
Haqq gözüylə baxın nöqsanlıya.

Lazım gəlsə nöqsanı deyin,
Qəlbi pərdəlidən uzaq gəzin.
Tanrı özü pərdələmiş qəlbini,
Boş yerə yorma özünü.
Lazım bilsəydi qəlbini açardı,
Həqiqət ona nurtək saçardı.

Dedi:Qəlbləri mən pərdələmişəm,
Könülləri kor olsun deyə,
Səni mən seçmişəm,
İnşallah, dünyaya bəyan edəcəyəm.
Mən sevirəm, Rəbbimin
Eşqi onun sonsuzdur.
Ona sadiq qulların
Sevgisi sonsuzdur.
Şükürlər olsun Yaradana,
İlhamı verib mənə.
Sadiq qalıb,
Qovuşacam ona.

## HİCABI QADAĞAN EDƏNLƏRƏ

Min dona girib,
Özünü güclü bilib.
Şəriəti sevməyib,
Özünü haqlı bilib.

Hər yerdə çaxnaşma salıb,
Çoxlu qanlar axıdıb,
Hicabı bəhanə edib,
Müsəlmanla savaşıb.

Açıq-saçığı çox sevir,
Baxıb xoşuna gedir.
Dünyanı pozğunluğa aparıb,
Qiyaməti gətirir.

Əgər əlinizdə olsaydı,
Şəriəti dəyişərdiniz.
Dünyanı kafirlərlə doldurub,
Kef edərdiniz.

Yazılıb, pozulmayacaq,
Əlinizdə olmayacaq.
İslamı yox sayanların
Cəzası ağır olacaq.

Yer üzü qan ağlayır,
Günahlar təhlükəyə aparır.
Əlinizdə olmayan zamanı,
Deyin, kim saxlayır?

Dedi:Biz özümüz bilirik,
Təhlükə göndəririk.
Silib yer üzündən,
Cəzaları veririk.

Namusu, qoyub çöldə,
Onunla öyünən var,
Şəriəti görməzdən gəlib,
Əməl etməyən var.

Çoxlu qanlar axıdıb,
Zülümlər hazırlayırlar
Hər yerdə Allahlıq edib,
Çoxlu canlar alırlar
Etdiyi günahlarla
Cəhənnəm hazırlayırlar.

## ƏN BÖYÜK DÜŞMƏNİMİZ KİMDİR

Toplasan da dövləti,
İmansız ölsən nədir xeyrin?!
Gözündə yox qiyamətim,
Ariflər gözündə var hörmətim.

Nəfsimiz düşmənimizdi,
Şeytan da qənimimizdi.
Nəfsimizi enə bilərik,
İmana gələ bilərik.

Çoxu özünü güclü biləcək,
Nəfsini həmdəm edəcək.
Tanrı önündə əyilməyib,
Nəfsinin önündə əyiləcək.

Şahidi olacaq həqiqətin,
Nəfsin önündə yox dəyanəti.
Namərd önündə əyilənin,
Verilməyəcək qiymətin.

Solacaq eşqi, həvəsi,
Ölməyəcək heç nəfsi.
Taleyi öz əlindədi,
İncilər, gövhərlər götürməyindədi.

V.2010

## NƏFSİ NECƏ ENMƏK OLAR

Dedi:Hər gün rast gəlirsən,
Nəfskarı görürsən,
İmanınla anlayıb
Gücsüz olduğunu bilirsən.

Yaralı qüştək inləyəcək,
İçindəki şeytanı görməyəcək.
Özünü ağıllı sanıb,
Haqqa gəlməyəcək.

Namazı, orucu,
Düşməz yada,
Günahkar olub,
Günahla gedər.

Çox yeyib yorulub,
Qarnının qulu olub.
Ac qalmağı düşünməyib,
İradəsini gücləndirməyib.

Nəfsi şahlıq edər, (surə 50.27)
Əsir saxlayar hər yerdə,
Əgər bir gün yeməsə,
Küsər gedər hər yerdən.

Aclığı davam etdirməli,
Nəfsi küsdürməli,
Ondan güclü olduğunu,
Ona bildirməli.

Enməklə yüksəldim aşiqliyə,
Haqq gözüylə baxdım hər şeyə.
Günahdan qurtulub,
Bir də geri dönmədim.

Özünü aclıqla eylə imtahan,
Bu yolda mətin dayan.
Elə ki, baş qaldırsa nəfsin,
Təkrar eylə küssün nəfsin.

Əsl imana gəlmək üçün,
Nəfsi öldürmək olacaq işin.
Hər zaman təkrar eyləsən,
Xoş gələcək bu vərdişin.

Şükür razı qalmışam,
Azad olmuşam,
Əziyyət verən nəfsimi,
Belə alçaltmışam.

İndi mənim qulumdur,
Vardır məndə Haqqa inam.
Məndə noqsan axtaran,
Gəl, bunlara inan.

Su ilə doya bilərsən,
Hər an susdura bilərsən.
Aclıq üz versə,
Nəfsin gen gəzər.

Bilir onu çox enmisən,
Güclü olduğunu bildirmisən.
Çıxsa əgər cızığından,
Yenə cəza verəcəksən.

Dahilər çox ac qaldılar,
Nəfsi enməyə qalxdılar.
Nəfs enən zaman,
Onlar Haqqa ucaldılar.

Olmadı əsiri varın, dövlətin,
Nəfsin önündə dayandı mətin.
Allah da görüb bu dəyanətin,
Dedi, qulum mətindir, mətin!

Şeytan səndən gen gərəcək,
Nəfsinə güc gələ bilməyəcək.
Hər şeydən güclü olan nəfsin,
Belə gücdən düşəcək.

Arif anlayacaq yazdıqmı,
Nadan axtaracaq nöqsanımı,
Elə ki, aclıqdan söz düşsə,
Nadan qorxacaq o dəm.

Deyəcək, yeməsəm ölərəm,
Haqqa olmasa inam,
Dünyanı versən nadana,
Yenə aclıqdan qorxar hər an.

Ən böyük dahi nəfsi enəndi,
Haqq yoluna gələndi.
Etməyib səhvi,
Dünyadakı birincidi.

Cənnətin açarı öz əlindədi,
Xeyirlə şər öz əlindədir.
Qazandığın savablar
Əməl dəftərindədir!

Haqq aşiqləri birincilərdi,
Cənnətdə əbədi yaşayacaq.
Dolanıb başına Rəbbinin,
Ona sevgisindən danışacaq.



## İSLAMA DÜŞMƏN OLANLARA

Dedi:Dində ayrılıq salıb,
İslamı dindən saymayıb,
Qorxmayıb Allahdan,
Hər zaman qan axıdıb.

İddiaları böyük olub,
Dünyaya ağa olub.
Üzdə insan olub,
Batində canı olub.

Sükuta qərq olub,
Çox savaş unudulub.
Dünyanın hər yerində
Məsəlmanlar qırılıb.

Əlləri boşda qalacaq,
Yer üzü boşalacaq.
Kafirlərin çoxusu,
O dünyalıq olacaq.

Çoxu dinə gələcək,
Əvvəlkindən ibrət götürəcək.
Aləmlərin Rəbbinə,
Hər gün dua ediləcək.

Azlıqla qalacaq,
Yardıma möhtac olacaq.
Savaş edə bilməyib,
Dilləri lal olacaq.

Nura nur qatılacaq,
Kafirlər azalacaq.
Şəhid olub çoxusu,
Aşiqliyə ucalacaq.

İşimiz Haqq işidir,
Süfrəmiz açıq olub.
Əvvəl yeyib gedənlər,
Sonra bizə düşmən olub.

Tarixlərdə çox olub,
Dillərə dastan olub,
İslamı yox etmək istəyənlər,
Hamısı darda qalıb.

Hər günün bir ilə bənzər,
Yazdıqların dünyanı gəzər,
Sənin kimi şeir yazan,
Yatıb yuxuya gəlməz.

V.2010

**ÖLÜM**

Ölənə çox ağlamayın,
Yenidən diriləcəyik.
Haqqın qarşısında,
Sorğu-sual ediləcəyik.

Sanma taleyin əlindədi,
Düz işin əməlindədi.
Etdiyimiz günahlar
Əməl dəftərindədir.

Kasıblıqdan qorxub hər an,
Etmə Haqqa üsyan.
Bil ki, Haqq səninlədir,
Düz işinlə, əməlinlədir.

Qorxunu atıb başdan,
Üzüağ çıxmışam savaşdan.
Hər gün durub obaşdan,
Etməmişəm üsyan.

Çoxunun kafirlikdir peşəsi,
Saymamaqdır işi.
Haqq sözünü deyən zaman,
Şübhə ilə baxmaq işi.

## ŞAİRİN İŞİ

Şairin işi yazmaqdır,
Haqq sözünü yaymaqdır.
Arxayın olub lütvünə,
Bu dünyada qoymaqdır.
Dahilərin nə gecəsi, gündüzü var,
Sözləri yazmaqla qutarmaz.
Bulaqtək coşub-daşarlar,
Xəyal ilə dolaşarlar.
Haqq sözünü dedim deyə,
Adımı dəli qoydun, niyə?
Təmizləməyib nəfsini,
Günahkar oldun niyə?

## ŞEİR YAZAN

Elə bilmə şeir yazan kef çəkir,
Kef nədir, eləcə zillət çəkir.
Ürək yanır, köz olur,
Ahları qalxır göyə,
İncilər süzülür yerə.
Şeir belə yaranır,
Acı odlara yanır.

## YALAN DÜNYA

Unudub əhdi-peymanı,
Viran qoydun dünyamı.
Sevginin sevgi dünyasını,
Qəm əli ilə yıxan dünya.
Yalan dünya, yalan dünya.

Sanma belə qalacaq,
Elə mənə yanacaq,
Könül evim yıxacaq,
Verdiyini alacaq,
Yalan dünya, yalan dünya.

Baxmaz gözüm yaşına,
Nə qohum-qardaşınama.
Ürəyimin başına
Öz oxunu atan dünya,
Yalan dünya, yalan dünya.

Üzümə gülə-gülə,
Səni həsrət qoydu mənə.
Ümüdimi bilə-bilə
Yerli-dibli kəsən, dünya,
Yalan dünya, yalan dünya.

Arzuları yarı qoyub,
Torunu yolda qurub,
Məni yollarda yorub,
Öz toruna salan, dünya,
Yalan dünya, yalan dünya.

Çox canlar alsan da,
Fələk canın alacaq.
Qiyamətdə İsrafil
Surun elə çalacaq, (surə 78.18)
Yalan dünya, yalan dünya.

## SÖYLƏ, DÜNYA NƏLƏR ETDİN

Ağladıb çox kəsləri,
Ağlar qoydun gözləri.
Güldürüb namərdi,
Söylə dünya, niyə etdin?

Dedi: Mən dünyayam, ağayam,
Mən də əmr quluyam.
Çıxsam Haqqın sözündən,
Bir gün dağılmalıyam.

İnşallah, dağılacan,
Daha ağlar qoymayacan.
Güldürüb namərdi,
Mərdi həsrət qoymayacan.

Atacan qoynundan,
Nə qədər yükün var.
Müvəqqəti ölənlər
Qəbirdən çıxacaq.

Edəcəyik sənə tamaşa,
İnşallah, əli çırpmayacam başa,
Yeyib-içib, dincəlib,
Cənnətdə gəzəcəm qoşa.

Tufanlara sinə gərmisən,
Çox kəsi əzizləmisən,
Sonra pərişan edib,
Qoynunda gizləmisən.

Səni sevən peşman olub,
Sonra pərişan olub.
Səni sevməyən,
Haqqa sığınıb.

Şirin dilli sonasan,
Tələyə salansan.
Unudub əhdi-peymanı
Ürəyindən vuransan.

Aldanmaram şirin dilə,
Gəlmərəm felə.
Müvəqqəti yaşadığımçün,
Sevgim yoxdur elə.

VI.2010

## EŞQ

Həyatın mənasıdı eşq,
Könlümün sevdasıdı eşq.
Yuxusuz gecələrimin,
Ruhumun qidasıdı eşq.
İllər boyu unudulmayan,
Məni bəlaya salan,
Zamanın qalibi,
İmtahanıdır eşq.
Eşqsiz insan
Nəyə gərəkdir?
Eşq ilə insan,
Yüksələcəkdir!
Haqqa gedən yol,
Eşqdən başlar.
Eşqlə yanan ürək,
Haqqla birləşəcək.

## FƏRMAN DİNLƏNİR

Ürək, fərman dinləmir.
Elə sevirəm, deyir.
Sirrini mənə vermir,
Eşqimi bəyan edir.
Nəyi ürəyin baxım sözünə,
Qəmi, gətirib mənə
Sənsiz qalan illəri,
Qonaq gətirib mənə.
Ümidimi üzməyib,
Hələ illər var, deyir.

Yanan mən özüməm,
Sənə nə var, deyir?!
Ümidimi bağlayım ilə,
Səni sevirəm deyə.
Axırda qoca qarıya,
Dönüm niyə?
Mənə sevgi gərək,
Onu versən,
Könül sevinəcək.
Yoxsa illərdən
Əlini üzəcək.

XI.2008

**GƏLƏCƏKDİR**

Dərdi ürəyində qübar eyləyib,
Dünyadan üz döndərib.
Axırda gül göndərib,
Sevgisiylə sevindirəcək.

Mənim tək dünyadan küsüb,
Səadətdən əlini üzüb.
Axırda dərddən bezib,
Bir gün gələcək.

Səsimi yetirin ona,
Sözümü söyləyin ona.
Məndən əlini üzməsin,
Bir gün gələcəm ona.

XII.2008

## ZAMAN

Könlüm həsrət qaldı,
Susduğunu bilə-bilə.
Bu od-alov sönmür niyə,
Yoxluğunu bilə-bilə.

Gözlərəm, nə zamansa
Zaman səni unudacaq.
Sanki zaman dönür geri,
Yaşayıram o günləri.

Zamanla vuruşsam da,
Hər şeyi buraxdım zamana.
Deyə bilmədiyimi,
Deyəcək zəmanə.

## HARDASAN

Görən indi hardasan,
Hansı könüllərdəsən?
Bəlkə dərd əlindən,
Özün dardasan.
Aramayıb sən məni,
Gözü yolda qoymusan.
Sənli günləri,
Nə tez unutmusan?
Əlini üzüb,
Keçmişə dönməlisən.
Sənli olan günləri,
Yenə sevindirməlisən.

Gəl, desəm gələrsənmi?
Gözüm yaşın silərsənmi?
Yenə dərdini
Mənimlə bölərsənmi?

***

Saralmışam, solmuşam,
Yollu özüm bağlamışam.
Hər şeyi unudub,
Gələcəyə buraxmışam.
Könlümü oda atıb,
Həsrət qalmışam.

XII.2008

## «SÖYLƏ HƏYAT, SƏN KİMİNSƏN»

Söylə həyat, sən kiminsən?
Dedi məni sevənin
Eşqdəncanı yanıb
Duz yol göstərənin.

Söylə həyat, sən kiminsən?
Məni kəşf edənin,
Zülmətdən çıxıb,
İşığa doğru gedənin.

Söylə həyat, sən kiminsən?
Tarixdə iz qoyanın,
Allah aşiqi olub,
Eşqindən yananın.

Söylə həyat, sən kiminsən?
Səbrlə yol gözləyənin,
Hər şeyi Haqqa buraxıb,
Ancaq ondan istəyənin.

Söylə həyat, sən kiminsən?
Namərdə baş əyməyənin,
Hər yerdə Haqq sözü deyib,
Ancaq Haqqa güvənənin.

Söylə həyat, sən kiminsən?
Yuxusuz qalıb gecələri,
İlhamıyla  yazanın,
Haqqa çağırıb,
Zülmətdən gurtaranın.

Söylə həyat, sən kiminsən?
Tövbə edənin.
Nəfsini təmizləyib,
İradəsini gücləndirənin.

Söylə həyat, sən kiminsən?
Şöhrət-şanı istəməyib,
Əsərlər yaradanın,
Mənfət güdməyənin.

Söylə həyat, sən kiminsən?
Xarüqələr yaradanın,
Elm ilə məşğul olub,
Onu xalqa çatdıranın.

Söylə həyat, sən kiminsən?
İlham alıb,
Röyada deyiləni
Açıqlamayanın.

Söylə həyat, sən kiminsən?
Nuralanın
Əmr gələn zaman,
Ölümdən qorxmayanın.

Söylə həyat, sən kiminsən?
Cənnətdə yeri olanın,
Dünyanı boş sayıb,
Haqq dünyası qazananın.

Söylə həyat, sən kiminsən?
Özü şəhid olaınn,
Həm də dirilikdə
Şəhidlik qazananın.

Söylə həyat, sən kiminsən?
Toz-torpaqa bulananın,
Zəhmətlə məşğul olub,
Halallıqla dolananın.

Söylə həyat, sən kiminsən?
Nəfsini yenib,
İbadətlə məşğul olub,
Şeytanla vuruşanın.

III.2011

## PAXILLIQ

Zamanla heyrət etmişəm,
Paxıllar görmüşəm.
Könlümdə paxıllığa,
Yer verməmişəm.

Əlvida deyib həyata,
Çoxu yoxdur dünyada.
İndiki zamanda
Paxıl çoxdu dünyada.

Öz-özüylə vuruşur,
Başqasıyla yarışır,
Özündə görməyib nöqsan,
Özgədə nöqsan axtarır.

Sevinməz xeyir işə,
Ətini çəksəndə şişə,
Paxıllıq düşmən olub,
Çevrilib vərdişə.

İşi var toplamaq olar,
Sevgidən daim qalar.
Gözü doymayıb,
Elə qonşuda olar.

Daim deyinən görərsən,
Niyə belədir – deyərsəm.
İçindəki vəhşini,
Hey görərsəm.

İman nədir bilməz,
Paxıllıq imkan verməz.
İçindəki paxıllıq,
Onu didib tökər.

Hər işi yalan olar,
Əldən də əyri olar,
Nəfsi çox olub
Yaşamaq haram olar.

Harda xoşbəxt görsə,
Daim qarğış yağdırar.
Gəzib bir-bir falçını,
Özünə bəxt açdırar.

Əsirgəməz falçıdan
Varı-dövlətini.
Pul verib evlər yıxar,
Düşünməz aqibətini.

Üzdə üzünə gülər,
Gözündən xainlik tökülər.
Yığılsa bütün təbiblər,
Dərman eduknəz.

Düşünür çox yaşayacaq,
Daim yarışacaq,
Sahib olmayıb dilinə,
Nöqsan axtaracaq.

Heç kimi bəyənməz,
Yaxşı olduğunu deməz,
Namərd olduğu üçün,
Mərdlik nədir bilməz.

Yuyulmamış qaşıq kimi,
Hər zaman çirkli olar.
Döyülməmiş qapı kimi,
Hər zaman qapalı olar.

Fəqət, gözü danışar,
Hər şey orada yazılar,
Arif olanlar,
Paxılı tanıyar.

İnanma düzələ bilər,
Pas atmış qəlbi gülər,
Sevgini tanıyan bilən,
Təmir qəlbini görər.

Şükür belə yaratmış,
Baş qaşından ayırmış.
İlhamı verib könlümə,
Yazmağa hazırlamış.

Çox şeyə sahib olub,
Şükür, deməyi unudub.
İçindəki şeytanlar
Mələk qəlblilərlə vuruşub.

Şeytan sevməz mələyi,
Ondakı gözəlliyi.
Rahat buraxmaz,
Özünə döndərmək istəyi.

Mələk şeytanlıq edə bilməz,
Səviyyəsinə enə bilməz,
Sevgiyə haqdan gələn ilham,
Çox şairə gələ bilməz.

Çün hər an Haqqa bağlıdır,
Dərddən könlü dağlıdır.
Gülsə də üzü
Canı qəfəsdə bağlıdır.

Gözü görməz heç nəyi,
Ürəkdə silinməz qəmi.
Sənə bəslədiyim sevgi,
Məni imana gətirdi.

Ürəkdə dərdim sağalmaz,
Könlüm rahatlıq tapmaz.
Səni sevən aşiqlərinə,
Vüsalın qismət olmaz.

Elə bir atəşlə yandıracaq,
Hər şeirimdə andadacaq,
Adı paxıllıq olan şeirimi,
Sonunu sevgi ilə qurtaracaq.

## DİNİ PƏRDƏ ALTINDA GİZLƏNƏN İMANSIZLARA

Yox olub vicdanın,
İbadətlə məşğul olub,
Üzdə imanlı olub,
Batində şeytan olub.
Nə istəsən edib,
Hər kəs inansın deyə,
Günahkar bilməsin deyə,
Yalana əl atıb,
Din pərdəsi altında
Maskalanıb.
Ürəkləri zalımdır,
Dilləri şirin olub.
İnsanları aldatmağa,
Hər zaman hazır olub.
Ağlı iti olan,
Hər kəsi tanıyan,
Zor tətbiq etməyib,
Allaha buraxar.
Yox olacaq həvəs,
Bu yolda yorulub,
Nəhayət
Görünəcək üzü
Zaman gələcək,
Kimin haqsız olduğunu
Özü fərman verəcək.
Sevgi, sən səbr eylə,
Verilənə şükür eylə.
Tanıyıb zalımları,
Haqqdan dönənləri

Bəlkə peşman olacaq,
Səhv anlaycaq.
Tövbə edib
İmanla oyanacaq.

## DÜNYANI SEVGİ QURTARACAQ

Verib Allah borcunu,
İbadəti kəsməyib,
Hər yerdə düzgün olub,
Ona sevgi göndərib.
Ölümü unutmayaq,
Alıb bizdən ilhamı,
Yaşatsın dünyanı.
Əsirgəməyək sevgimizi,
Versin qismətimizi.
Qiyaməti gətirməyib,
Yaşatsın bizi.
Nadanlıqdan əl çəkib,
Haqq-ədaləti itirməyək.
Məscidləri təmizləyib,
İmana gəlib,
Nəfsimizi azaldıb,
İnsan kimi yaşayıb,
Dünya gözəldir deyib,
Allahı qəzəbləndirməyib,
Duaları kəsməyib,
Yaşadaq islamı.
Dünyaya yayıb,
Sevgi ilə yaşayıb,

Yaradana inanıb
Yaşadaq dünyanı.
Sevgisiylə yaradıb
Verib insanlara.
Dünya bizimdir deyib,
Çıxmayın adlara.
Qəzəbini nifrətə çevirməyək,
Könlüdə sevgi toxumu əkək.
Sevgisinə layiq olub,
Cənnətə gedək.
Neçə-neçə ölkələr,
Xaraba qalmış.
Qəzəbləndirib Yaradanı,
Cəhənnəmə layiq olmuş.

## GÜNDƏ NEÇƏ DƏFƏ NAMAZ QILMAQ OLAR

Quranda açıqlanıb,
Beş dəfə qıl, yazılıb. (surə 73.20)
Çoxu birləşdirib,
Onu qısaldıb.

Əvvəl elə qılardım,
Onu doğru sanardım.
Şəriəti bilməyib,
Günah qazanardım.

Şəriəti oxumuşam,
Onu doğru bilmişəm.
Qurana əməl et deyə,
İlhamımla bilmişəm.

Yarı yolda qalmayın,
Heç kəsə inanmayın
Quranı oxuyub (surə 73.20)
Beş dəfə namaz qılın..

Kim istəyir inansın,
Quranı ələ alsın,
Başqasına inanmayıb,
Şəriətə inansın.

Dedi: Sözümü dinlə yaxşı,
Sən cənnətin naxışı.
Sorub, öyrəndiyin üçün,
Sənsən , yaxşıların yaxşısı.

Mən nə karəyəm,
Əmrə tabeyəm,
Əmrindən çıxsam,
Üzü qarəyəm.

Nəfsinə qul olma,
Yenə ac qalasan,
Nəfsini yenib
Sevimli qul olasan.

İnşallah, ac qalacam,
Sağlamlıq qazanacam.
İmtahandan çıxıb
Mətin dayanacam.

XII.2008

## ALLAH AŞİQİ EŞQ ŞƏRABI İÇƏR

Ləldən, gövhərdən gözəl,
Hikmətli sözlər yazmışam.
Dünyada oxunsun deyə,
Gecəni gündüzə qatmışam.

Gecə-gündüz xəyaldayam,
Sormayın ki, nə haldayam.
Olub həqiqət sorağında,
Hey yazmaqdayam.

Görüb yarın vəfasını,
Görməyib simasını.
Gecə-gündüz arayıb,
Röyamda danışmışam.

Şairlik çox şanlıdır,
El qızı Azərbaycanlıdır.
Gəzib eli-obanı,
Tapılmayıb dərmanı.
Qəbul et duamı,
Zindandan qurtar canımı.

Görəsən hardadı qəsirin,
Gəlim tapım qəsirin.
Açıb içəri girim,
Olum sənin əsirin.

Könlüm sənin əsirin,
Sevgi adlı qəsirim.
İlmə-ilmə toxumuşam,
İçində əsir qalmışam.

XII.2008

## HƏR ŞEYİ ÇOX İSRAF EDƏNƏ

Gərək qədrin bilə,
Hər an şükür deyə.
Etməyib israf,
Olmaz deyə.
Toplayıb dövləti,
Bilməsən qiyməti.
Verilən nemətin,
Sahibi Tanrıdır.
Əldən alarsa,
Nalə göyə qalxar.
Qüştək qəfəsdə qalıb,
Yuxu zəhərə dönər.
Ah edə-edə ağlar,
Niyə etdin qınanar.
Əldə qalmaz bir manat.

Verilən bu barat,
Dəlmişdir zarafat.
Əridə-əridə heç etdi,
Sarala qaldı həyatda,
Həm də nəqliyyatda,
Kim zəhmətə eyləsə adət,
Verilər bərəkət.
Yorulub qalmasa taqət,
Şöhrətə, çatar nəhayət.
Şam  zəhmət çəkər,
İşığı ilə nura qərq edər.
Yanıb sonda yox olar,
Hər iki dünyada üzü ağ olar.
Çox dövlət istəyən,
Taleyin hökmünə çıxan,
Barışmaz yoxluqla bircə an,
Gözünə görünməz  cahan.
Saxta olar hər bir işi,
Nəfsi güclü olub,
Aldatmaq olar işi.
Əl çəkməz vərdişdən,
Gecə-gündüz var toplar,
Savabı qazanmaz.
Əlinə keçəni yeyər,
Rəngi gültək solar.

Etməyib heç pəhriz,
Hər an dərddə qalar.
Gecə-gündüz şəfa istər,
Həkimləri çox gəzər.
Nəfsinə qul olub,
Zərərli nə varsa yeyər.
İki əlli tutar dünyanı,

Varı yaşatmaz onu.
Qoynundakı ilanı,
Bir gün çalar onu.
Varına arxalanan kəs,
Var getdi, qaldı quru nəfəs.
Sevgi dünyaya etmədi həvəs,
Bildi məkanı olar məhbəs.
Azad quştək gəzdi dünyada,
Bel bağlamadı vara, ada.
Öləndən ibrət götürüb,
Bildi qalar dünyada.
Söz xəzinəsini sevdim,
Dedim, yadigar qala.
Oxuyub ibrət ala,
Dünyaya inanmaya.
Həris olmaya,
Gecəsi gündüzü yox olar.
Hey var toplayar,
Canı var-dövlətdədir,
Sanki ölmüş dəvədir.
Nəfsini enə bilməyən,
Sanki kiçik bəbədir.
Olmaz əhdi-ilqarı,
Gözünü tutmuş.
Dünyanın varı,
Varı yaşatmaz onu.

Eşidilər ahu-zarı,
Torpaq doydurar tamahkarı.
Olmasa da dövlətim,
Könlüm toxdur,
Heç kəsin varında yox gözüm,
Duaya qalxıb əllərim.
Səbrlə mənzilə çatacam,
Narahat olmayacam.
Bilirəm, Rəbbim yetirəcək,
Zəhməti itirməyəcək.
Lənət edib şeytana,
Gəlməyəcəm oyuna.
Dünyanın o biri üzü var,
Dünya bir imtahandır.
İmtahandan kəsilən,
Dərgahına əli boş gedər.

## ŞƏRABIN İMANA TƏSİRİ

Şeytan şərabı göstərib,
Məstlik verir, deyib
Aldığı ləzzətdən güləcək,
Dodu yerinə qoyacaq,
Dindən yayındıracaq.
Çox qanlar tökdürüb,
Kənardan baxacaq.
çoxuna şərab çəkdirəcək,
Məst et, deyəcək.

Oyunu çox olacaq,
Boyunduruğu boyuna salacaq.
Nəfsinə qul olanla,
Dost olacaq.
Enə bilməyəcək imanlını,
Nəfsi olmayanı.
Gecə-gündüz ibadət edib,
Haqqa bağlı olanı.
Ancaq dilindən tutacaq,
Sözlə çaşdıracaq.
Dilinə sahib olan,
Onu qəfəsdə saxlar.
Uymayıb şeytan sözünə,
Onu lal qoyar.
Açarı verdin əldən,
Qurtarmarsan töhmətdən.
Nə varsa açıb tökərsən,
Aləmə car çəkərsən.
O oddan yaranmış, bizsə torpağında,
Torpaqtək lal olmalıyıq.
Torpaqla od uyuşa bilməz,
Bir yerdə davam gətirməz.
Özünü təkəbbürlü sanar,
Az adam tapılar onu qınayan,
Bəsirət gözüylə baxsa insan,
Özündə görər çox nöqsan.

VI.2010

## 20 YANVAR ŞƏHİDLƏRİNƏ

*İlham və Fərizənin əziz xatirəsinə*

Bir cüt qoşa göyərçin,
Şəhidlər xiyabanında.
Ölümə sinə gərib,
Vətən torpağında.

Əli boş çıxıb,
Kafirlərin önünə.
Sinəsi tuş gəlib,
Namərd gülləsinə.

Məhəbbət dastanısınız,
Azərbaycan elində.
Cənnətin gülüsünüz,
Şəhidlərin içində.

İkinci həyata başlayıb,
Cənnətdə yaşayırsınız,
Şəhidlər ölməyib,
Ölməzliyə ucalıbsınız.

Qanınızla yazdınız,
Siz azadlıq sözünü.
Dünya tanıdı
Azərbaycan elini.

Əsarətdən qurtardınız,
Dillərdə dastan oldunuz.
Siz şəhidliklə
Azərbaycanı yaşatdınız.

***

Şəhidliyə ucalıb,
Tarixlərdə qalıbsınız,
Elin gözündə
Mərdliyə ucalıbsınız.

Sırayla düzülübsünüz,
Şəhidlər xiyabanında.
Siz keşik çəkirsiniz,
Vətən torpağında.

Həyatdan doymadınız,
Ölümdən qorxmadınız,
Siz qəlbimizdə
Əbədi yaşayırsınız.

VIII.2008

## BİLMƏZSƏN

Duya bilməzsən dərdimi,
Allahım qədər.
O hər an könlümə səbirlər verər.
Hər gecə könlümə yağan yağmırlar,
Səhər günəşində əriyib gedər.
Mən eşq pərvanəsiyəm,
Yanıb, yanıb kül olamı.
Təkrar yanmaq üçün,
Yenidən doğullam.

VI.2008

## XOCALI ŞƏHİDLƏRİNİN ƏZİZ XATİRƏSİNƏ

Dərələri, təpələri,
Bürüyüb meyidlər.
Özləri qana batıb,
Adları qalıb şəhidlər.

Fələstinə bənzəyib,
İgid oğulları,
Al qana boyanıb
Gəlinləri - girları.

Əlləriylə bəzəyib
Tabutunu insanlar.
Çoxu meşədə qalıb,
Qurda-quşa yem olub.

Gözləyib zamanını
Qollarında can verib.
Yasin oxunmayıb
Kafir əlində ölüb.

Siz fəxrimiz olub,
Adınız tarixdə qalıb.
Gələcək nəsillərə
Örnək olubsunuz.

Şəhid olub adınız,
Gələcək nəsillərdə
Yaşayacaq adınız,

Yetməyib fəryadınıza,
Kimsələr gəlməz oldu.
Qorxudan ürəyiniz
İki yerə böləndü.

Susayıb qanınıza,
Sizə tələ qurdular.
Evləri gəzib bir-bir,
Bir yerə topladılar.

Dedi:Allah özü şahiddir,
Sizin fəryadınıza.
Ərşini titrədib,
Mələkləri ağladıbsınız.

Belə dünya yox olsun,
Müharibənin sonu yox.
Nahaq qanlar tökülür,
Zülmün sonu yox.

Çoxlu qurbanlar kəsib,
Haqq yoluna gələsiniz.
İslamı yaşadıb,
İbadət edəsiniz.

Zülmün ərşə qalxıb tüstüsü,
Fəryadlar, nalələr üzüb bizi.
Soldurmayıb gələcəyinizi,
Haqq yoluna gələsiniz.

Bir gün zaman gələcək,
Hamı deyib-güləcək.
Sevgi xanım sizə,
Gözəl əsərlər gətirəcək.

O gün uzaqda deyil,
Doğrusun Allah bilir.
Lənət edib şeytana,
İmana, dinə gəlib.
Haqqa yönəlməkdi,
Məndən sizə deməkdi.

V.2008

## CƏMİ ŞƏHİDLƏRİN ƏZİZ XATİRƏSİNƏ

İllər boyudur şəhid veririk,
Düşməni sevindiririk.
Göz yaşıyla ovunub,
Hey qəmlənirik.
Nə qədər şəhidimiz var,
Cənnətdə yerimiz var.
Cəhənnəmə gedəsi
Çoxlu düşmənimiz var.
Ürəyimin dağı var,
Gözəl günlər gətirən,
Yurdumun mərd oğlu var.
Qurbanam adına,
Gözü yolda şəhid anasına.

Sevgi sizə salam söylər,
Özünü sizə bərabər görər.
Toplayıb, savabları,
Bir gün sizə gələr
Ucalan dualarımla,
Şəhidliyə yüksələr.
Allah aşiqinə dua edib,
Hər gün yüksələr.
Görülməmiş işlərim,
Yazılmamış sözlərim var.
Görülməmiş yuxularım,
Keçmədiyim həyat yolum.
Bir yetimim var,
Çoxlu əhdim var,
Eşitmədiyim dualar,
Şeytanı qəmləndirən
Çoxlu dostlarım var.
Könlümün üstünə yığsan gülləri,
Güllərində eşidiləcək iniltiləri.
Solacaq dərddən o axşam, səhər,
Həyat olacaq zəhər.
Sevgi üzdə gülümsəsə də,
Könlündə çoxdu qəhər.

kiçik ürəyə necə sığışar,
Ürək dərddən mənə danışar.
Bir qadının güclü olduğunu
Hələ dünya çox danışar.

0I.2011

## KİMLƏRƏ DEYİLİR GERÇƏK YUXU

Dedi:Allah seçdiyinə əyan eylər,
Gerçək yuxunu bəyan eylər. (surə Əlqəsis, ayə 12)
Bəsirəti açıq olana,
Çox şeyi əyan eylər.

Çoxu anlamaz bunu,
Özü görməmiş onu.
Gerçək yuxu sahibinə,
Yaradan göndərmiş onu.

Əli heç yerə çatmaz,
Çoxu ona inanmaz.
Şəkk-şübhə edənin
Yeri cənnət olmaz.

Sübh namazını qaçıranın,
Qəsdən onu qılmayanın,
Kim çatacaq harayına,
Cəhənnəmdə yananın?!

Daş ürəklərdə sevgi olmaz,
Yuxu heç kəsə açılmaz.
Yuxunu açanlara,
Bir də yuxu çatdırılmaz.

Dedi:Mən də günah eyləmişəm,
Çox yuxunu söyləmişəm.
İndi tövbə eyləyib,
Gələn yuxunu gözləmişəm.

Gəlin söyləməyək,
Yaradana ilham verək.
Layiqli qul olduğumuzu
Bir daha isbat edək.

Çox olub, olacaq,
Gerçək yuxu çatdırılacaq.
Bəsirəti açıq olanlar,
Məni haqlı sanacaq.

Tövbə qapısı açıq olub,
Hər an bizi gözləyər.
Peşiman qullarına,
İnşallah, yenə söz deyər.

II.2011

## HƏZRƏTİ MUHƏMMƏD (Ə.S) DOĞUM GÜNÜ

Bu gün doğum günündür,
Doğum günün mübarək.
Doğru yol gəstərdiyinçün
Allaha şükür deyək.

Nurlu bir günəş tək,
Dünyaya işıq saçıb.
İslamı dünyaya yayıb,
Sevgi paylamisan.

Tox olub nəfsin,
Dünya gözündən düşüb.
Sevgi bağçasını
Öz əlinlə əkibsən.
Əzaba  dözüb,
Haqqa yüksəlmisən.

Haqq aşiqisən,
Könüllərin sultanısan.
Dərdli könüllərin
Dərmanısan.

Gör nə qədər varisin var,
Sevənlər rəhmət deyər.
Adına dualar oxuyub,
Ruhunu sevindirər.

Tapıb elmin açarını,
Hidayətə qovuşsun.
Aləmlərin Rəbbinə
Çox şükürlər eyləsin.

Dedi:Allah aşiqləri hər
Əzaba dözsün gərək,
Qorxmayıb heç kəsdən,
Haqq sözünü yaysın gərək.

Könlün dolub, daşıb,
İlhamı Allahdan alıb,
Qorxmayıb zalimdən,
Haqq sözünü yayıb.

Salam Muhəmmədi Mustafa,
Gözümü qoymusan yolda.
Rəhmət oxuyub,
Salıram hey yada.

Bilirəm nələr çəkmisən,
Könüllərdə çiçəklər əkmisən.
Dərd əlindən yanan könlünə
Əlac etməmisən.

Rəbbimə, şükürlər olsun,
Qullarından salam olsun.
Göndərdiyi Quranın nuru
Qəlbimizə dolsun.

Xoş avazla oxuyun Quranı,
Könlümüzə yayılsın ilhamı.
Sadiq qulların xatirinə,
Yaşatsın dünyanı.

Salam olsun Əhli-beytinə,
Dünyaya səpələnən nəslinə.
Adını uca tutub,
Sənə dua edənə.

25.02.2010



## ON İKİ İMAMA

İslamı yaşadıb,
Haqsızlığa dözüb,
Dərdlərə sinə gərib,
Qorxmayıb ölümdən,
Şəhidliyə ucalıbsınız.
Cənnətə layiq olub
Dünyaya səs salıbsınız.

Alıb sizdən ilhamı
Eyləmişəm duamı.
Əhli-beyti sevmişəm,
Onları nəslim bilmişəm.

Gözəlliklə doludur,
Yolum Haqqın yoludur,
Əhli-beyti sevənlər,
Ona dua edənlər,
Rəbbin lütvünü qazanıb,
Cənnətə gedərlər.

Əhli-beyt nurumuz,
Neçə əsr keçsə də.
Hər zaman yaşayıb,
Adına dualar oxunub,
Adları anılıbdır.

Zəfərlər sizinlədi,
Yeriniz çənnətdədi.
İslamı yaşadıb,
Dünyaya səs salıbsınız.

Mən də sizin kimi,
İslamı yaşadacam.
Sözümü dünyaya yayıb,
Tanrı gözündə
İnşallah, ucalacam.

**HƏZRƏTİ MUHƏMMƏD (Ə.S)**

Dedi:Allah lənət eyləsin,
Tövratda, İNcildə
Vəsvini gizlədənə (surə 2,174)
Yalançı bilib,
İslamı bəyənməyənə.
Surələri dəyişib, (surə 6.91)
Yeni söz əlavə edib.
Allah yazdığını bəyənməyib,
Ayrılığa səbəb olub.
Çox qanlar tökülüb,
Gözləri kor olub.
Dilləri lal olub,
Hər gün əzabda qalıb,
Cəhənnəmi doldurub.
Allah dini bir olar, (surə 98.5)
Hər kəs ona qul olar.
Etdiyi günahlar
Bir gün ona dərd olar.

## AŞURA GÜNÜ

İslamı yaşadıb,
Dünyaya səs salıb.
Qorxmayıb ölümdən,
Şəhidliyə ucalıblar.

Yox olub yuxuları,
Talanıbdır varları.
Çoxusu əsir düşüb,
Olmayıb qərarları.

Neçə əsr keçsə də,
Unudulmayıb adınız.
Tarixlərdə qalacaq
Sizin şəhid adınız.

Əhli-beyti yayıb,
Siz Haqqa ucalıb.
Şəhidlərin içində
Çox kəsdən ucasınız.

Allah dinini Haqq sayıb, (surə 98.5)
Onu dünyaya yayıb.
Yaradanın gözündə,
Sevgiyə layiq olubsunuz.

İslamı bəyənməyənin,
Dinimizə lağ edənin,
Allah verib cəzasını,
Alacaq qisasını.

Alıb sizdən ilhamı,
Yazıb-yaradacam.
İslamın Haqq olduğunu
Dünyaya yayacam.

## SÜBH NAMAZINI QƏSDƏN QAÇIRANLARA

Bir az yatım, deyə,
Yuxuya qalacaq.
Namazı qaçırıb,
Günahkar olacaq.

Şeytan baxıb sevinib,
Yuxuya verib, –
Niyə qalxırsan,
Hələ tezdir, yat, deyib.

Yuxu çox şirindir,
Allahı sevən kəs
Yuxu nədir bilməyib,
Səhv etməyə qorxub.

Sınayıb imanımızı,
Verəcək dünyamızı.
Ya cənnət cəhənnəm,
Eşitməyəcək üsyanımızı.

Axirətçün tədarük edək,
Günaha tövbə deyək.
Zaman olmayacaq,
Ölümdən qaçılmayacaq.

Hər an ölüm gələ bilər,
Bu dünyadan ala bilər.
Neçə il yaşadığına
Kim əmin ola bilər?!

Gəlib yetib-ölüm ani,
Əldə deyil bircə-ani,
Mən hələ görmədim,
Ölümü dayandıranı.

VI.2008

## SAHİB- ƏZ-ZAMAN

Dedi: Onu deyə bilmərəm,
O, mənim qeyibimdədir.
Zamanında deyib,
Sizi agah eyləyib,
Çox üzləri güldürüb.
Çoxun pərişan edib –
Keşkə geri dönəydim,
Allahıma sevgi göndərəydim.
Geri dönüş olmayıb,
Verilibdir qiyməti.
Önündə açılıb,
Onun əməl dəftəri.

VI.2008

## İLHAM GƏRƏK

Yazmaq üçün ilham gərək,
Atəşdə yanmaq gərək,
Tapıb söz xəzinəsini,
Qapısını açmaq gərək.

Yazmaq üçün duyğu gərək,
Uçub xəyal qanadında,
Olub həqiqət sorağında,
Yanıb eşqin alovunda,
Usanmayıb əzabdan,
Qorxmayıb heç zalımdan,
Düz sözü deyən olasan,
Alıb Haqqdan ilhamı,
Kəsməyəsən duanı.

## SÖZ XƏZİNƏSİ

Çox söz xəzinəsi tanıyıram,
Nə qədər istəsən sözləri var,
Hər kəsin orda öz payı var.
Kimi aza qane olub, bir az götürən,
Kimi də mənimtək xəzinə bitirən,
Sinəmə yığdığım  sözlər ki, var,
Odsuz, alovsuz yandıracaq.
Sonra da misraya düzülüb,
Könül dəftərimə yazılacaq.

V.2008

## CƏNNƏT MƏLƏKLƏRİNƏ

Keşkə sizə gələydim,
Deyib-güləydim.
Sizinlə ibadət edib,
Cənnəti gəzəydim.

Sıra-sıra durulub  cərgəyə,
Başlar gəlib səcdəyə.
Ədalətli olub,
Gəlməyib qəzəbə.

Sizə salam göndərirəm,
İbadətdə sevindirirəm.
Rəbbimə şükür olsun,
Halıma şükür edirəm.

Duyuram  hey ətrinizi,
Salamlayıram hər birinizi.
Keşkə yanınızda olub,
Görəydim sizi.

Arzu-kama yetirsiniz,
Müjdəylə sevinirsiniz.
Sizi sevən aşiqlərə,
Siz də salam göndərirsiniz.

Yoxdur tayı-bərabəri,
Cənnətdəki mələklərin.
Kim onlara salam söyləsə,
Çin olar arzu-diləkləri.

Yaradan alıb sizdən ilham,
Sizə də verib ilham.
Ətrinizdən məst olub çiçəklər,
Salam, gözəl mələklər.

Yeriniz elə məchuldur ki,
İnsan ayağı dəyməmiş ora.
Meraca gedən peyğəmbərimiz,
Onunla görüşüb hər biriniz.

Hələ ki, ömür var, yaşayıram,
Sizə uzaqdan baxıram.
Siz görsəniz, mən görməsəm də,
Xəyalınızla danışıram.

VII.2010

## ƏLİ ƏKBƏRƏ

Bilib müsibətini salamlaşmışam,
İslamı yaşadanı alqışlamışam.
Sizə sevgi göndərib,
Yatmışları islama çağırmışam.

Tanrı yaradıb mömin sizi,
Gətirib ilhama hər birinizi.
Əsrlər keçsə də aradan,
Dualar oxunur durmadan.

İmanı üstün tutub candan,
Keçmisiniz əziz candan.
Sevgi durub obaşdan,
Salam göndərir durmadan.

Siz cənnətin qulusunuz,
Tarixlərdə qalan sünbülüsünüz.
Bərəkətiniz tutub dünyanı,
Sevənlər yaşadıb islamı.

## HZ: XANIM ZEYNƏBİN XATİRƏSİNƏ

Güllər içində bir dənəsən,
Ürəyi dağlı Zeynəbim.
Əzizləri şəhid olub,
Gözünü yolda qoyub.

Arana bax, dağa bax,
Taleyi kəm olana bax.
Dözüb hər bir cəfaya,
İslamı yaşadana bax.

Sıra-sıra düzülüb,
Şəhidləri içində,
Məkanınız gözəldir,
Cənnətin gözəl yerində.

## HZ: XANIM RUQİYYƏNİN XATİRƏSİNƏ

Ruqiyyə deyər, bacı can, ağlama,
Düşməni sevindirib ürəyimi dağlama.
İslama zərbə vuranlara
Heç vaxt bel bağlama.
Şairin könlündə qərarı olmaz,
Bəslədiyi güllər, vaxtsız solmaz.
Nə əkərsə, onu biçəcək,
Şoranda güllər olmaz.
Gəzəsən eli-obanı,
Yox etməyəsən ilhamı.
Sevindirməyib şeytanı,
Yaşadasan islamı.

III.2010



## AŞIQ ƏLƏSGƏRİN XATİRƏSİNƏ

Şükür olsun Yaradana,
Siz kimi aşığı gətirib cahana.
Yadigar qoyub şeirlərini,
Sevgini gətirib ilhama.

Yaradan yanında hörmətin var,
Dərdli könüllərə məlhəmin var.
Yazıb-yaratdığın əsərlərin,
Dünyaya yadigar onlar.

Əbədi deyil dünya,
Çox kəsi gətirib oyuna.
Hünərin var, dərd üz verəndə
Qol götürüb oyna.

Sazınla, sözünlə anlatmısan,
İnsanlığa çağırmısan.
Bu haqqsız dünyada
Haqqa ucalmısan.

Uzun gecədə oyaq qalmısan,
Mətləbi yuxuda almısan.
Eşq şərabını içib,
Aşiqlərə saxlamısan.

Yanan canından xəbərim var,
Aşiqlər sırasında adın var.
Qoyub getdiyin şeirlərin
Ürəyimə məlhəmi var.

Şirin-şəkər, baldı sözün,
Məni məndən aldı sözün,
İnşallah gəlib cənnətə,
Görəcəyəm mən özün.

Şirinliyi hardan aldın?
Hər sözünə balmı qatdın?
Haqqdan alıb ilhamı,
Sevginlə ucaldın.

Sevgi deyər sizə rəhmət,
Bizə bir bərəkət.
Tanrı görüb sevgimizi,
Verəcək bərəkət.

VII.2010

## SALIRMI YADINA

Görəsən salırmı yadına,
Ürəyi həsrətdən yanırmı?
Dərd əlindən saralıb,
Gözü yolda qalırmı?

Ən dərdli anında,
Tutub eşqin əlindən,
Keçib tufandan,
Məni yada salırmı?

Haraylayıb  məni,
Gözü yaşla dolurmu?
Boş qalan yerimi,
Başqasıyla doldururmu?

Götürüb şəklimizi əlinə,
Qayıdırmı keçən günlərə?
Yoxsa atıb bir kənara,
Xatırlamır bir daha?

Bezib iş-güc əlindən,
Bir kənara çəkilirmi?
Xəyal qanadında
Mənə qonaq gəlirmi?

Susdurub eşqinin səsini,
Dinləmir naləsini.
Sevgi zənn edib,
Sevirmi özgəsini?

Kim sevər mənim kimi,
Sənsiz sənə sığınar.
Gözləyib yollarını,
Gözü yollarda qalar?!

İçəydin eşqin şərabın,
Olaydın mənim kimi.
Unudub bu dünyanı,
Sevəydin mənim kimi.

Gəzəydin bağça, bağları,
Gedəydin xəyallara.
Bu dünyaın unudub,
Aşiq olaydın Allaha.

Eşq şərabından içməyən,
Səhrasında gəzməyən,
Dözüb hər bir qəmə,
Vəfa göstərə bilməz.

Könlüm bulaq kimidir,
Həm sərin, həm istidir.
Görə bilmədiyi üçün,
Eşqindən dəlidir.

Könlüm susmayacaq,
Elə eşqindən danışacaq.
Röyada axtarıb,
Üzünə həsrət qalacaq.

Qəmdən qala tikəcək,
Dərdini tək çəkəcək.
Onun nə çəkdiyini
Bir Allah görəcək.

Xəyalı ilə olacaq xəstə,
Canı qalacaq məhbəsdə,
İlhamıyla hey danışıb,
Qoyacaq çox bəstə.

İnşallah, gəzəcək elləri,
Sevindirəcək könülləri,
Sevginin aşiq olduğunu
Görəcək özləri.

Yaşayacam şeirlərimdə,
Olacam könüllərdə,
Sevgi ilə doldurub dünyanı,
Qurtaracam dünyanı.

Sevgisizlikdən nə hal qaldı,
İnsanlıqdan sıxıb canavar oldu.
Hər gün çoxaldıb bəlaları,
Dünyanı qiyamətə apardı.

Sığınmadı şəriətin sözünə,
Dik baxmadı həqiqətin gözünə.
Aldadıb hey özünü,
Öyrənmədi bildiklərini.

Qaranlıq içində şama bənzər
Möminlərin nurları.
İnşallah, çoxalacaqr
İslamtək din olacağam.

Nuruyla  işıq saçacaq,
Qaranlığı işıqlandıracaq.
Sevgi də uzaqdan baxıb,
Fərəhindən şad olacaq.

İndiki kimi var olmayacaq,
Gözləri yaşla dolmayacaq.
Görməyəcək  savaşları,
Hədə gözündəki yaşlarlı.

Niyə bu qədər kövrəyəm,
Varmı mənimtək inciyən,
Yas tutub dünyaya,
Dərdini deməyən?!

Dərdim yaşa dönər,
Yanağımdan gilələnər.
Ağlamaqla yüngülləşər,
Ürəkdə qalsa dağa dönər.

Ruhum haqqa qovuşacaq,
Dərdi, qəmi unudacaq.
Sevgisini dünyada qoyub,
Sevgiyə çağıracaq.

Sevgi dünyanı qurtaracaq,
Könüldə sevgi yaradacaq,
İlhamı verən Allah,
Ona bərəkət paylayacaq.

Ərşə qalxacaq səsi,
Eşidiləcək sevgi nəğməsi,
Dalğalanıb sülh bayrağı,
Dünya bayram edəcək.

Zamanı mən bilmirəm,
İlhamımla deyirəm.
Üzümü tutub Allaha,
Dünyanı qurtar deyirəm.

Qurdla quzu yola getsin,
Hər yerdə sülh səsi eşidilsin.
Şeytan özünə lənət deyib,
Dünyanı tərk etsin!

Solmasın yanaqları körpələrin,
Artmasın qəmləri gəlinlərin,
Əlinə xına qoyub, inşallah
Üzü gülsün gəlinlərin.

27.12.2010

## FALÇILARA

Kafirlikdir işləri,
Aldatmaq peşələri.
Yarı yolda qoyub,
Əzab vermək işləri.

Kəşf edə bilməyib,
Haqq işini bilməyib,
Mələklərdən çox qorxub,
Ərşi dinləyə bilməyib.

İradəsi zəif olub,
Özünü güclü sanıb,
İnsanları aldatmağa
Hiyləsi çox olub.

Ağlı olan inanmaz,
Şəriəti yox sanmaz.
Şeytan sözünə inanıb,
Özünə günah qazanmaz.

Bir Haqqa sığınıram,
Qalanı yalan sanıram.
Bəsirətlə görüb
Ağlıma inanıram.

Allah islah eyləsin,
Şeytana uyanları,
Falçılara inanıb,
Fal açdıranları.

Dedi:İmanı şeytana satıb,
Şeytandan söz qoparıb,
Yarısı gerçək, yarısı yalan olub,
Mən sirrimi demərəm,
Mələklər də bilməyir.
Denən ona ibadət etsin,
Şeytanı özündən kənar etsin,
Allah sevgisinə layiq olar,
Yoxsa cəhənnəmlik olar.

XII.2008

## ŞEYTANLA İNSANLARIN MÜBARİZƏSİ

Dedi:Varlığınla bağlı ol Allaha,
Batma günaha.
Qorxmayıb şeytandan,
Qalx hər zaman duaya.

İnanma gen gəzəcək,
Əlini səndən üzəcək,
Hər zaman hazır olub,
Məqam gözləyəcək.

Enməyə çalışacaq,
İbadətdən yayındıracaq,
Çıxsan əgər şəriətdən,
Günahlar qazandıracaq.

Sanma təslim olacaq,
Tərsliklə qalacaq.
Allahı sevən kəslərə,
Düşməncə baxacaq.

Ordusunu toplayır,
Cəhənnəmə hazırlayır,
Yoldan çıxan kəsləri,
Zülümlərə hazırlayır.

Aşiqində qərar olmaz,
Könül yazmaqla doymaz,
Çıxsa əgər əmrdən,
Arzulara çatmaz.

XII.2010

## DƏFTƏRİMİN VƏRƏQLƏRİ

Qalıb çoxusu əlimdə,
Çapa göndərilməyib.
Sözləri hikmətli olub,
Könüldə iman oyadıb.

Sevə-sevə oxuyuram,
Xəyallar qururam,
Çapa hazırlamaqçün
Gecə-gündüz çalışıram.

Elə xəzinə toplamışam,
Hikmətin qiyməti yox.
Xəzinə şahmartək çalar,
Hikmət könüldə sevgi yaradar.

Dəyişmərəm dünya malına,
İmandan ona qala tikərəm.
Qalıb keşiyində
Əyər-əskiyini düzəldərəm.

Qal dəftərim ürəyimin başında,
Könlümün sözləri yazılıb onda.
Əlim heç yerə çatmayanda
Könül sirdaşım olan dəftərim.

## RUHU GÖZƏL OLANLARA

Ruhu gözəl olanın
Zinətə gərəyi yox.
Nə qədər yusam bədəni
Çirkin olsa gərəyi yox.
Ruhdur tanıdan,
Gözəl,ya çirkin
Olduğunu anladan.
Dünya gözəli olsan,
Çirkin ruh çirkinliyə aparar.
Gözləri verər ələ,
Ariflər duyar belə.

## SƏVİYYƏSİZ OLANA

Sanki lay divar kimidir
Canı olsa da ölüdür.
Axtarma şeytanı kənarda,
Elə şeytanın özüdür.

Dili bir qarışdı,
Könlü əsarətdə qalmış.
Heç kəsi istəməyib,
Nəfsi qarğışdı.

Özünü öndə görəcək,
Ürəyi gülməyəcək,
Yalan olar sözləri,
Düz olmaz əməlləri.

Uzaqdan tanıyaram,
Adam yerinə qoyaram.
Allah islah etsin deyə,
Hey duaya qalxaram.

2010

## NİYƏ BİRİ SÖYLƏDİ MƏNƏ YOX, SƏNƏ VERİLİB İLHAM

Dedi: Əhdinə vəfalı olsaydı,
Könlü Haqqa dönsəydi,
Könlünün gözünü biz də açardıq,
Ona həqiqəti çatdırardıq.

Layiq olanı biz seçirik,
Hər iki dünyada yüksəldirik.
Duaya qalxan əllərini,
Hər zaman görürük.

Onun kimiləri milyonlarcadı,
Seçilmişlər sayca azcadı.
Könlünün gözü bağlı olub,
Sevgisizlikdən avara qalıb.

## ŞAİRLİYİ GÖZLƏMİŞƏM

Çox sənətlər seçmişəm,
Tufanlardan keçmişəm,
Ürəyimcə olmayıb,
Axır özüm bezmişəm.

Ruhuma ruh verməyib,
Ruzi xatirinə işləmişəm.
İlləri gözləyib,
Zamanı bilməmişəm.

Şeirdən zövq alaram,
Səhvəyə yazardım.
Ağlıma gəlməzdi,
Şair olaram.

İllərlə oxumuşam,
Onlara rəhmət oxumuşam.
Yazılan şeirləri,
Yadda saxlamışam.

Arzulara çatmışam,
Gecə-gündüz yazmışam.
Yazmaqdan zövq alıb,
Heç yorulmamışam.

İllərlə gözləmişdim,
Ürək susmur, demişdim.
Başqa şeir oxumaqla,
Könül doymur, demişdim.

Gecə-gündüz yanır ürək,
Çox sözü yaz deyərək.
Neçə illərin var,
Deyilməmiş sözlərin var.

Susma könül, yaz görək,
Sənə Haqdan var kömək.
Sən də şükür söyləyərək,
Razı edəsən gərək.

## ELƏ BİR DÜNYA İSTƏYİRƏM Kİ

Elə bir dünya istəyirəm ki,
Torpağı, daşı sevgidən olsun.
Hər yerdə ibadət, həqiqət,
İnsanlar hamısı bərabər olsun.
Elə bir dünya istəyirəm,
Şeytanın insana hökmü olmasın.
Çıxarıb çoxunu yoldan,
Xəcalət qoymasın.
Elə bir dünya istəyirəm ki,
Elmlə, eşq ilə ucalsın.
Baxıb keçmiş illərinə,
Gec qalmısın
Elə bir dünya istəyirəm ki,
Nəfsini orucla ensin.
Tapıb elmin açarını,
Elmə yiyələnsin.
Elə bir dünya istəyirəm ki,
Könüllər, sevgiylə dolsun.
İbadətdən doymayıb,
Kamilliyə ucalsın.
Elə bir dünya istəyirəm,
Sevgi ilə aşiqliyə ucalsın.
Sevgisinə layiq olub,
Yaradandan ilham alsın.
Elə bir dünya istəyirəm,
Gəzib həqiqət sorağında,
Yorulmasın sevməkdən,
Utanmasın düz deməkdən.
Dedi: Sanma ki, o yerdədir.
Cənnətin açarı,

Hər kəsin öz əlindədir.
Dünyadan şikayət etmə,
Dərdli könüllərə sözünü söylə.
Unudub bu dünyanı,
Cənnəti özünə məkan eylə.

X.2009

## BİSMİLLAHİR RAHMANİR RAHİM
## SEVGİSİZ OLANA YAZIĞIM GƏLİR

Batmış qəm dəryasına,
Nəfsi qoymur yetsin yarısına.
Özünə zülüm edənin,
Kimsə gəlməz fəryadına.

Sevgisiz olana yazığım gəlir,
Uymuş dünya malına.
Ondan bir şey götürməz,
Savabı vaxtında düşünməz.

Sevgisiz olana yazığım gəlir,
Düşünməz son aqibətini.
Peşimanlıq onla qalar,
Göz yaşı daim axar.

Sevgisiz olana yazığım gəlir,
Dəyərmi, bir ömrü boş yaşamağa.
Hər ötən anı boşuna gedər,
Bir ömür beləcə bitər.

Sevgisiz olana yazığım gəlir,
Ancaq nemətləri düşünər,
Sanki onunla xoşbəxtdir,
Dünya ondan ibarətdir.

Sevgisiz olana yazığım gəlir,
Könlü hey dardadır,
Əlləri qoyunda qalıb,
Hər zaman zindandadır.

Sevgisiz olana yazığım gəlir,
Necə yaşayır düşünürəm.
Bu gözəl dünyaya,
Yük olduğunu görürəm.

Sevgisiz olana yazığım gəlir,
İnsan sevgidən güc alar.
Sevgisiz olanları,
Dünya tələyə salar.

Mən, cahan mülkünə sevməyə gəldim,
Şükür ki, sevgimlə sənə yüksəldim.
Açıb könlümdə yeni bir səhifə,
O səhifədə səni vəsf elədim.

Vəsfin o qədər gözəldiki,
Görməsəmdə, bəsirətlə görürəm.
Elminin necə gözəl olduğunu,
Könlündəki gövhərlərdən bilirəm.

Dedi: Vəsf edib, məni heyran edirsən,
Sənə lütvümü, özün görürsən.
Sevgisiz qullara,
Nəsihətlər qoyub gedirsən.

Hər yerdə sülh deyil,
Əli qoynunda qalanlar var,
Sevgidən yoxsul olanların,
Dünyanı xaraba edənlər var.

Ölkələri qan gölünə göndərib,
İnsanları didərgin edib,
Varına var qatanlar,
Dünyanın belə gedəcəyini düşünüb.

## AZƏRBAYCAN ƏSGƏRİNƏ

Dedi: Durubsunuz keşikdə,
Gecə-gündüz vətənin.
Əlləriniz var olsun,
Görən gözünüz sağ olsun!

Qalıbsınız üz-üzə
Namərd gülləysiylə.
Gözü yaşlı qalıb
Anaların, fəryadı
Ərşimi titrədib.

Qana qan deyib,
Çəkilməyib sərhəddən.
Sinəniz tuş gəlib,
Kafirlər gülləsinə.

Gözəl günlər qabaqda,
Firavan həyat sürəsiniz.
Üsyanları yatırıb,
Üsyankar olmayasınız.

Hələ neçə oğulun,
Sinəsi tuş gələcək
Mərmilərin, topların
Səsləri eşidiləcək.

Həyat eşqi sonsuzdur,
Gözəlliklə yaşayıb,
İbadətə başlayıb,
Məndən imdad diləyib,
Qurbanlar kəsməlisiniz.

XI.2008

## BƏZİ ŞAİRLƏRƏ SÖZÜM

Adı şair olub,
Sözü yarımçıq olub.
Günlərlə gözləyib,
Şeir yazıram deyə,
Ordan-burdan düzəldib
Söz yığını olub.
Heç mənası olmayıb,
Guya ki, şair olub.

Bağlanıb gözü,
Haqqı tanımayıb,
Kefdə-damağda olub,
İbadətdən yan qaçıb.
Özünə sığışdırmayıb,
Yaradana əyilməyib,
Özüm edib hər şeyi,
Arzuma çatmışam.
Şeirləri məzmunsuz,
İlhamı olmayıb,
İstedadım var deyib,
Çapa hazırlayıb,
Özünə bənzəyib.
İlhamı verir Allah,
İstəsə alır Allah.
Keçirib imtahandan,
Ona olan eşqini,
Keçirir sınaqdan,
Verir qiymətini.
İnşallah, üzüağ çıxıb,
İlhamımla yazacam.
Haqqın sözünü yazıb,
Gözündə ucalacam.
Mənə verib ilhamı,
Sözümü dünyaya yayıb.
Sizə sevgi paylayıb,
Mənə olan sevgisini.
Dünyaya bəyan edib,
Gözümün nuru olub,
Mənə həmdəm olub.
Gecələri yatmayıb,
İlhamımla yazıb.

Sizə şeir verəcəm.
Şeiriyyat necə olur,
Bildirəcəm.
Dahiləri sağ olsun,
Yaradan verib ilham.
Özü-sözü duz olub,
Haqqı tanıyan olub.
Sevgisiylə yaradıb,
Əyilməyib heç kəsə.
Deyib sözün,
Gözü götürməyən.
Ona paxıl olub,
Haqqın qarşısında,
Günahkar olub,
Hər zaman mərd olub.
Sənəti üstün tutub,
Canından keçib onlar.
Dünyadan əlini üzüb,
Onu əfsanə bilib.
Könül verməyib ona,
Aşiq olub Allaha.
Sözünü deyib,
Yaradana güvənib,
Ona şükürlər deyib,
Dərdini ona deyib.
Elə inşallah deyib,
Bir gün olar deyib,
Etməsə şükür deyib.
Ondan əlini üzməyib,
Yenə inşallah deyib.

## BƏZİ BƏSTƏKARLARA SÖZÜM

Allahın bir lütvüdür,
Hər kəsə verməyib,
Bəstələyib şeirləri,
Çoxu yarımçıq olub,
Əlindən gəlməyib,
Ona-buna lağ edib,
Guya bəstəkar olub.
Şeirlərin çoxusu,
Heç mənası olmayıb.
Onun-bunun yerinə,
Mahnı bəstələyib.
Ruhu sönük olub,
İlhamı olmayıb.
Dini imanı olmayıb,
Adi bəstəkar olub.
Götürüb şeirləri,
Yenidən düzəldib.
Şeirlərin yerinə
Söz əlavə edib,
Bəstələyib mahnıları,
Zövqləri korlayıb.
Mənim şeirlərimin
Haqqdan gəlib sözü.
Düzəltməyə gərək yox,
İncidir, gövhərdir o.
Əlavə edilməyib,
Haqqın sözünü deyib,

Çox kəsi heyrətləndirib.
İstedadlı bəstəkarlar,
İşində mahir olub.
İlhamıyla yaradıb,
Bəstələdyiiy mahnılar,
Könüllərdə yaşayıb,
İllərlə unudulmayıb.
Sadəliklə dolanıb,
Hər kəsə örnək olub.
Yaradan razı qalıb,
Adını ucaldıb,
Dünyaya yayıb.
Tarixlərdə yaşayacaq,
İlhamlı bəstəkarlar,
Heç unudulmayacaq.

VI.2008

## ÜÇRƏNGLİ BAYRAĞIMIZ

Ölkələrin içində,
Yoxdur tayı-bərabəri.
Dalğalanan bayrağımızın
Çox yerdən gəlir xəbəri.

Rəngləri ürəyimcədi,
Ay, ulduzu tamaşa.
Sanki göydən pay alıb,
Vətən üstə dalğalanıb.

Düşmən bağrı çatladıb,
Hər yerdə dalğalanıb.
Gözü götürməyənin,
Ürəyinə dağ olub.

Qəbrim üstə gələsiniz,
Onu üstümə sərəsiniz.
Öz vətən qızınıza,
Rəhmət deyəsiniz.

Göz yaşımla yazmışam,
Sizinçün ağlamışam.
Düşmən əlinə keçməsin deyə,
Allaha yalvarmışam.

Namərd bilməz qədrini,
Duymaz ətrini.
Düşmənə satıb vətəni,
Bilməz qədrini.

Düşmən elə düşməndir,
İzahına gərək yox!
Aramızda düşmənin,
Bu torpaqda yeri yox!

Sevincimizə sevinməyəcək,
İmandan, dindən dönəcək.
Düşmənə dost olub,
Onları sevindirəcək.

Özümüzə dost qazanaq,
İmanda kamilliyə çataq.
Etməyib günahları,
Dərgahına ucalaq.

V.2009

## SƏNİ ŞƏRAB DEYİL

Səni şərab deyil,
Eşqin məst eyləsin.
Könlündəki incilər,
Həqiqəti söyləsin.

Səni şərab deyil,
Çiçəklər məst eyləsin.
Səs, səsə verən quşlar,
Sənə nəğmə söyləsin.

Səni şərab deyil,
İlhamın məst eyləsin.
Göydəki mələklər,
Sənə salam söyləsin.

Səni şərab deyil,
Azadlıq məst eyləsin.
Əsarətdəki zəncirlər,
Öz nəğməsini söyləsin.

## QURANI EVİNDƏ SAXLAYIB, ONDAN BİXƏBƏR OLANLARA

Çox evdə vardı,
Nəsillərə yadigardi.
Müqəddəs olduğu üçün,
Zamanla qorunub.

Şəriətdən xəbərsiz,
Kim nə söyləsə inanır.
Qiyamət gələn zaman,
Dirilməyə inanmır.

Çoxuna and yeri olub,
Kitabı oxumayıb.
Əgər ondan danışsan,
Çox sözə inanmayıb.

Gərək açıb oxusun,
Hər şeydən xəbərdar olsun.
Özü şahid olub,
Bəlkə ibrət alsın.

Nəsildən-nəsilə ötürülüb,
Hər zaman üzü köçürülüb.
Tərcümə olunub dillərə,
Şəriəti öyrən deyilib.

Bəsirəti bağlı olana,
İstəsən yüz dəlil göstər,
Yenə dediyini deyəcək,
İman nədir bilməyəcək.

Düşünür həyat bitəcək,
Hər nə varsa, burda görəcək.
Diriləcəyinə inanmayıb,
Qiyamət boşdur, deyəcək.

Axır bir gün öləcək,
Haqq qarşısına gedəcək.
Sorğu-sual edilib,
Əsl yeri göstəriləcək.

Şəriətlə gedən kəs,
Taleyindən küsməsin.
Dünyanın müvəqqəti olduğunu,
İmanıyla bilsin.

VI.2010

## İSLAMIN DÜŞMƏNLƏRİNƏ

Dedi: İslamı yıxmağa çalışırlar,
Gözü yaşlı qoyurlar.
Savaşı bəhanə edib,
Dində ayrılıq salırlar.
Gərək mətin olasınız,
Haqq işinizdə ucalasınız.
Qorxmayıb kafirlərdən,
Haqqdan kömək alasınız.
Yetirin işi başa,
Başlamayın savaşa.
Allah verəcək cəzasın,
Siz edəsiniz tamaşa.

Allah birdir, deyir,
Özlərini haqlı bilir,
Bəyənməyib islamı,
Kafirliklə bilinir.
Tabe olmaq istəmir,
Namazı çətin bilir.
Qalmayıb kefindən,
Mən dindaram, deyir.

İlahi kitablara hörmətim var,
Haqdan gəldiyinə inamım var,
Cəmi peyğəmbərlərin
İslam olduğuna sübutum var.
Qanuna uymayan bəndə,
Xəyalı düşəcək dərdə.
Etməyib tövbə,
Ayrılıq salacaq hər yerdə.
Dilinə, dininə baxmayacaq
Tanrı əməlində görəcək onu.
İstər xristian ol, istər müsəlman,
Haqq borcunu ver, dayanma bir an.
İlahi kitablara riayət edin,
Peyğəmbərlərdən ibrət götürün,
Haqqın sözünü deyiblər,
Vərəqləri gizlətməyiblər. (surə 6.91)
Qorxmayıb insanlardan,
Onlara zalım olandan.
Hər yerdə sülh yaradıblar,
Ədalətlə tanınıblar.
Mən yazıram haqqın sözünü,
Sizə söyləyirəm düzünü.
Dində ayrılıq salanlar,
Boş yerə yormasın özünü.

Ölənə qədər çəkişəcəksiniz,
Mən haqlıyam deyəcəksiniz.
Qılmayıb heç namazı,
Günahkar olacaqsınız.
Allahı sevən ibadət eylər,
Ona sevgisini bildirər.
Qazanıb əməliylə cənnəti,
Orada əbədi məkan eylər.
Gündə beş dəfə ibadət etsən, (surə 73.20)
Günahdan təmizlənərsən.
Dində ayrılıq salmayıb,
Allahın bir olduğunu görərsən.
Bütün qapılar Haqqa açılar,
İmanlı namazıyla tanınar.
Dünyanın əbədi olmadığını,
O hər an anlayar.
Adı müsəlman olub,
Kafir olan çoxdur.
İslamdan onun
Xəbəri yoxdur.
İmanı, inamı olan bəndə,
Müqəddəs kitablara riayət edər.
Ayırmayıb bir-birindən,
Haqdan gəldiyini görər.
Gündə bir din yaradıb,
Kafirliklə tanınıb,
Çoxlu pullar qazanıb,
Özlərini haqqlı sanırlar.
Allaha sevgi pulla olmaz,
Çoxlu günah qazanmaz.
Allah aşiqi olan,
İbadətdən usanmaz.

Tanrıdan başqa köməyim yox,
Deyiləsi sözüm çox.
Namərd önündə əyilməyənin,
Haqq yanında hörməti çox.
İşin düşsə çətin-düyünə,
Səbrinlə aç bu düyünü.
Rəbbin gözündə mətin olarsan,
Səbrinlə tanınarsan.
İnşallah bir yol açacaq,
Haqq olanlar ucalacaq.
Zəhməti boş getməyib
O zaman anlayacaq.
Lütvünə arxayın olmalısan,
Qəhrindən qorxmalısan.
Verib haqqın borcunu,
Əməlində düz olmalısan.
Yatıb yuxuya qalmayasan,
Bilərəkdən namazı qaçırmayasan,
Doymasan da şirin yuxudan,
Sevginlə oyanasan.
Quranı oxuyasan
Ona əməl edib,
Cənnəti qazanasan.

IV.2010

## LƏNƏTLİK ŞEYTANIN FİTNƏSİ

Hər yerdə tələ qurub,
Çaşdırmağa çalışıb.
Rəbbim dadıma çatıb,
Hey qurtarıb.
Hazırın naziri olub,
Qorxub duadan
Kənarda qalıb.
Şeytana yer verməyək,
Fitnəsinə gəlməyək.
Ədalətli olub,
Üzünü qara edək.
Yeni şikar axtaracaq,
Yaddan çıxarmağa çalışacaq.
Sevgisiz olanı
Yoldan çıxaracaq.
Sevgi ilə qurulub cahan,
Dünyaya olubdur əyan.
Sevgisiz qullar
Quru canlardır.
Görə bilməz gözəlliyi,
Sübhün səhər yelini.
Verib hər iki dünyanı əldən,
Haqq borcunu verməyib
Mənəmlik tutub gözünü,
Oxumayıb Haqqın sözünü.
Dünyada yorub özünü,
Cəhənnəmdə görəcək özünü.

İncə mətləblər açdım,
Nəsihət qoydum.
Sevə-sevə oxuyub,
Nəsildən-nəsilə keçsin deyə.
Yeni bir həyat məni gözləyir,
«Günahdan təmizlən gəl», deyir.
Uymayıb şeytan sözünə,
Cənnəti məkan et, deyir.
Deyərsiniz bir Sevgi vardır,
Nəğmələri yadigardır,
Qorxmayıb heç çətinlikdən,
Bizə örnəkləri vardır.
Yanağından yaşlar axıb,
Allah aşiqliyinə ucalıb.
Qorxmayıb namərddən,
Hər şeyi düz yazıb.
Xəzinələri çox gəzmişəm,
İncilər gətirmişəm.
Qorxmayıb tufanlardan
Dünyanı boş bilmişəm.
Kafir toplasa da dövləti,
Məndən kasıbdı.
Xəzinəsi yaşatmayacaq,
Xəzinəm nurtək saçacaq.
Solacaq eşqi, həvəsi,
Ölümü gözləmək olacaq işi.
Sevgi inşallah nəsillərdə yaşayacaq,
Ona rəhmət oxunacaq.
Qarun da topladı varı, dövləti,
Ona səadət gətirmədi.
Tarı-mar oldu o bir gecədə,
Çoxu yerinə olmaq istəsədə. (surə 28.81)

Səhəri gördülər müsibətini,
Yoxdur xeyri varın, dövlətin.
Quranda söylənən bu həqiqətin,
Çoxları oxuyacaq bilirəm dəqiq.

VII.2010

## 8 MART QADINLAR GÜNÜNÜZ MÜBARƏK

Tale üzünüzə gülsün,
Sizi imana səsləsin.
Cəmi qadınların
Ruhu cənnəti gəzsin.

Unudub qəmi, kədəri,
Gözləyib gələn illəri.
Şölə saçsın ay kimi,
Nurlansın üzləri.

Əhdə vəfalı olasınız,
Sorğu-sual olunmayasınız.
Yaşadıb siz islamı,
Sevginizlə ucalasınız.

Hər biri bir çiçəkdi,
Biri-birindən göyçəkdi,
Əhdə vəaflı olan,
Aşiqliyə yüksələcək.

Qorxmayın bu yoldan,
Rəbbim kömək edəcək.
Könldəki imanı
Hey gücləndirəcək.

Bayramınız mübarək olsun,
Könlünüzə sevgi dolsun.
Vətənimin qadınları,
Üzünüz ağ olsun!

Bəzisi kişi kimi çalışır,
Onlardan dala qalmır.
Qadın olduğunu
Belə unudur.

Gözüm hər an axtarır,
İmanlını tez tanıyır.
Ondan ilham alıb,
Bərəkət arzulayır.

Əyər-əskiyi düzəldin,
Özünüzə sığal çəkin.
İmanda kamilliyə yüksəlib,
Dünyadan üzüağ gedin.

Allah sizi qorusun,
Gələn bəlalardan!
Üzağ etsin,
Şeytan olanlardan.

08.03.2011

## TÖVBƏ ETDİKDƏN SONRA ŞEYTANIN İNSANA TƏSİRİ NECƏ OLUR

Dedi: Yoldan edib çox kəsi,
İşi aldatmaq olar.
Tövbəkar insanı
Təkrar günaha çağırar.

Ardınca çox aparıb,
Təhlükəyə salıb,
Cəhənnəmi dolandırmaq
Onun işi olub.

Tövbə eyləsə də insan,
Vərdişi tərgitmək deyil asan.
İmanıyla sığınsa,
Gələr çox asan.

Axirəti düşünsün,
Şeytanı sevindirməsin.
Namaz qaçırmayıb,
Vərdişi tərgsin.

Ardına baxmadan gedsin,
Nəfsini aclıqla ensin.
Şəriətə əməl edib,
İnsanlığa yüksəlsin.

Allah güc verəcək,
Büdrəsə xəbərdar edəcək.
Şeytanı gücdən salıb,
İbadəti gücləndirəcək.

Zamanla alışacaq,
Keçmişi unudacaq.
Namazı qəsdən qaçırsa,
Şeytanla rastlaşacaq.

Ümidi kəsməməli,
Yolları təmizləməli.
Şübhəni unudub,
İmanı gücləndirməli.

Rahat olub hər yerdə,
Yeni həyata qayıdacaq.
Niyə gec qaldım, deyib
Özünü qınayacaq.

Yeni aləm açılacaq önündə,
Həm də əməl dəftərində.
Rəbbini heyrətləndirib,
Lütvünü qazanacaq.

Çox zaman sıxılacaq,
İki yol arasında qalacaq.
İmanı gücləndirməsə,
Günaha qayıdacaq.

Hər şeyin dərmanı imandı,
Bu yolda mətin dayan.
Məqsədli olub,
Yeni dünya qazan.

## BİTİR BU İŞKƏNCƏNİ-BİR NƏFƏRƏ

Özün çox bezmisən,
Cana gəlmirsən.
Haqqa gəlmək üçün,
Cəld etməmisən.

Zülümləri çox görmüsən,
Özün də iyrənmisən.
Allah bağışlamaz deyə,
Əlini üzmüsən.

Bağışlanmayan günah az,
Davam etməyə gərək yox.
Allahın mərhəmətinə,
Hər zaman ümid çox.

Şeytan hər yerdə,
Yoldan azdıracaq.
Tövbə etməmək üçün,
İmandan, uzaqlaşdıracaq.

Ruhun çox sıxılacaq,
Yeni yollar arayacaq.
Əgər addım atmasan,
Günahı çoxalacaq.

Sabaha saxlama,
İndi tövbəyə qalx,
Sonra peşiman olub,
Özünü qınama.

Əlindən tutan olacaq,
Düz yola qaytaracaq.
Könlünü dinləsən,
Allah yar olacaq.

Tərif edib hər yerdə,
Mələklər sevinəcək.
Şeytan baxıb qəmlənib,
Yenə dalınca düşəcək.

Enməsən, enəcək,
Günahkara döndərəcək.
Gücsüz olduğunu
Sənə bildirəcək.

Allah işıq göstərəcək,
Dalınca get deyəcək,
Əgər geri qalsan,
Yenə zaman verəcək.

Ayıq olmalı,
Səhvə son qoymalı.
İnanıb Rəbbinə,
Həyat qurmalı.

Gözü yaşlı qalma,
Allaha inan.
Əməlin düzgün olub,
Cənnəti qazan.

Dua ilə yetərik ilhama,
Duasız gəlməz imana.
Yüz ölçüb biçən,
Düşməz gümana.

Dua ilə arzuya yetmişəm,
Səbr Haqq yoluna gəlmişəm,
Haqqın rəhmli olduğunu,
İlhamımla bilmişəm.

Dua ilə qapıları açansan,
Könülləri açansan.
Çıxarıb zülmətin qoynundan
Könüllərə nur saçansan.

Hər iş səbrlə gəlir başa,
Zəhmətin getməz boşa,
Dua elə ki, mələklərin,
Gəlsin xoşa.

Gəlin dua eyləyək,
Bəxti Haqqdan istəyək.
Günah etməyib,
Əzaba düşməyək.

Olana şükürlər deyək,
Qədrini bilək,
Naşükür olmayıb
Şeytanı sevindirməyək.

## YORĞUN DÜŞMƏMİŞ QAYIT GƏL
**(Bir nəfərə)**

Qayıt, Rəbbin üzü gülsün,
Mələklər sevinsin.
Şeytan qəmlənib,
Dərddən üzülsün.

Qayıt, nurlu aləmi görəsən,
Haqq borcunu verəsən.
Yorğun düşüb yollarda,
Üzülməyəsən.

Uzun yolu qısa edəsən,
İman nədir biləsən.
Şərəfi, itirməyib
Əzab səkməyəsən.

Qayıt baxıb ibrət alsın,
Sevgindən güc alsın.
Ömrü boşa keçirib,
Sonra yanıb-yaxılmasın.

Yorğun düşüb yorulacaq,
Gözündə qınanacaq,
Nə axtardığını bilməyib,
Sevgini tapmayacaqsan.

Rəbbim gözləyir,
Hər anımızı izləyir.
Günahımıza səbr edib,
Bəlanı gecikdirir.

Qayıt, peyğəmbərləri alqış desin,
Tanrı qatında bağışla desin.
Cənnəti məkan edib,
Cəhənnəmi göstərmə desinlər.

Axır zaman yaxındadır,
Möminlər intizardadır.
Heç kəs bilməyib,
Lövhü-məhfurdadır. (surə 78.29)

## AŞIQ QURBANİNİN ƏZİZ XATİRƏSİNƏ

Dərdli sinəndə sirlərin var,
Haqq aşiqlərinə sözlərin var.
Yazıb-yaratdığın şeirlərinin
Dahilər yanında hörməti var.

Rəbbim səni seçib,
Eşq şərabını verib.
Nəfsi enənlər
İmtahandan keçib.

Gəldim ömrün yarısına,
Sevgi qatdın yarısına,
Könlüm dolu eşq ilə,
Salam kəramətlinin hamısına.

## BƏZİ İNSAN

Düşün hara gedəcəksən,
Torpağa çürüyəcəksən.
Ruhun qalxıb,
Yerin ayırd ediləcək.

Əlində olmayacaq ixtiyarın,
Kömək etməyəcək varın.
Zülmətə qarışacaq haraylarin,
Köməyə çatmayacaq dostların.

Çəkdiiyn keyf burnundan gələcək,
Ruhum əzablara düşəcək,
Etdiiyn günahlar
Hey göstəriləcək.

Yadına düşməmiş ibadətin,
Axirəti saymısan heç.
Düşünməmisən aqibətini,
Şəriəti saymısan heç.

Yatıb yuxuya qalmısan,
Əzanı heçə saymısan.
Sevib dünyanı,
Gülüb-oynamısan.

Tarixə salmamısan nəzər,
Demisən keyfim belə istər.
Nədən əyilim Haqqa,
Qalxmısan nahaqqa.

Yurda həsrət qalacaq,
Cənnətliklərdən ayrılacaq.
Çıxmayıb cəhənnəmdən,
Əbədi orada qalacaq.

Gözün ac, nəfsin tox olmayıb,
Namazı, orucu qılmayıb,
Düşünmüsən ölüm olmayacaq,
Axirət lazım olmayacaq.

Ətini çəksən şişə,
Tərslikdən dönməz yenə.
Şeytana dost olub,
Haqqa dönməz yenə.

Əlləri qoynunda olacaq,
Yaxınlardan ayrılacaq.
Şeytanla bir yerdə qalıb,
Dava-dalaş salacaq.

## NƏ GÖZƏLDİR NƏFSİNİ ENƏN

Çox əzabdan keçib,
Özü öz nəfsini enib,
Yetməsə də arzuya
Özünü təslim edib.

Çox götür-qoy edib,
Yaxşını pisdən seçib.
Utanıb əməlindən,
Haqq yoluna gəlib.

Ləzzəti atıb başdan,
Üzüağ çıxıb savaşdan.
Peşiman edib şeytanı,
Qalxıb obaşdan.

Yeni səhifə açmış,
Çox kəsə örnək olmuş.
İndi Haqqa inanıb,
Hər şeyi ona buraxmıs.

Olanlar yuxu imiş,
Şeytan onu əsir etmiş.
Zincirləri qırmıs,
Əsirlikdən qurtulmus.

Əsil imana gələn
Bir də geri dönməyəcək.
Etdiyi günahı
Təkrar etməyəcək.

Önündə nurlu səhəri var,
Şirin, acı xatirələri var.
Naz-nemətlə dolu dünyada
Hər kəsin qismətin var.

İmanını yoxlayacaq əzabla,
Çoxlu kədələ iztirabla,
Sevəcək günahlarla,
Sevdirəsən özünü dualarla.

Nəmrudun odu kimi,
İbrahimin sevgisi kimi,
Arxayın ol Rəbbinə,
Möminlərin dözümü kimi.

Sevgi dünyaya nəzər saldı,
İlhamı  Haqdan aldı.
Gördüyü hər mənzərəni,
Qələmə aldı.

Çoxunu keyfindən qalmayan gördü,
Heyrətlə baxıb süzdü.
Bildi kar etməyəcək sözləri,
Dilini  lal etdi.

Allah islah etsin günahkarı,
Gözü kor, könlü bağlı olanı.
Hər gün şirin yuxuda yatıb,
Sübh namazına qalxmayanı.

## İLHAMINI MƏNƏ VER

Nəvəm deyir, ay nənə,
İlhamını ver mənə.
Ürəyimizi dəyişək,
Mən sənə, sən mənə ver.
Deyirəm, canım nəvəm,
Nə alınmaz,
Nə satılmaz,
O elə ilhamdır
Hər könüldə olmaz.
Gərək layiq olasan,
Sevginlə ucalasan.
Verilən ilhamı,
Saxlayasan.
Sadiq olub Rəbbinə,
Nəfsinə qul olmayasan.
Əməlində düz olub,
Namazı qəsdən qaçırmayasan.
Şöhrətə, şana uymayıb,
İlhamı qaçırmayıb,
Gələmi hazır saxlayıb,
Deyiləni yazasan.
Şairlərə örnək olub,
Tarixdə qalasan.
Maneələri aşıb,
Yollarda yorulmayasan.
Yazdıqım bəsdir, deyib
İlhamı susdurmayasan.
Yatmasa da işə əlin,
Çap olmasa da şeirlərin.

Soyuq olsa da evin,
Boş qalsa da əlin,
Namərdə möhtac olmayasan.
Qismətim yoxdur, deyib
Ümidsiz qalmayasan.
Çox şeyi bağışlaya bilərik,
Allah verəni dəyişə bilmərik.
Əlimizdə olmayan qisməti,
Özümüz yaza bilmərik.

## ANA

Gözümün nuru ana,
Canımın canı ana.
Həsrətində qalmışam,
Qəminlə dost olmuşam.

Gözüm yolda qalıb,
Sənə yetməyib əlim.
Gələn yoluna,
Gül-çiçək səpim.

Əlimi üzüb səndən,
Yetməyib səsim.
Solub eşqim, həvəsim,
Bağrıma sıxıb,
Canıma can edəydim.
Evimə gətirib,
Qulluq edəydim.
Saçlarını darayıb,
Ona xına yaxıb,
Üst-başını təmizləyib,

İstədiyini bişirib,
Bağçada gəzdirib,
Saçına qül düzüb,
Ölümü yaxın qoymayıb,
Qapıları bağlayıb,
Allahıma yalvarıb,
Mənimlə qalsın.
Yetimlikdən bezmişəm,
Anasızlıq nədir bilmişəm.
Ana olandan bəri
Qədrini bilmişəm.
Övlad nankor olanda,
Ana yaman sınarmış.
Dünyası yıxılarmış,
Əli heç yana yetməyib,
Allaha sığınarmış.

## MƏNİM SADƏ XALQIMA

Bir üzü qız, bir üzü gəlin,
Çətinliyə sinə gərir.
Qorxmayıb çətinlikdən,
Səbirlə gözləyir.
Yaxanız zalım əlindədi,
Dünyanın kələyindədi,
Çörək pulu qazanmaq,
Sanki qaplan əlindədi.
Sizə canla bağlıyam,
Ey sadə xalqım.
Dözüb hər bir çətinliyə,
Sinə gərən xalqım.

Çoxu yurd-yuvasından
Didərgin düşüb,
Çətinliyi indi bilib.
Bir zaman ev xanımı,
Alıcı gözləyib.
Kişidən qalmaz dala,
Hər biri gözəl ana.
Vətənimin qadınları,
Çoxuna örnək ola.
Çoxu imana gəlib,
Şəriətə əməl edib,
Qadın gözəlliyini
Hicabla gizlədib.
Ətirli gül kimisiniz,
Sevginin sevincisiniz.
Ey mənim sadə xalqım,
Tarixdə qalacaq adın.
Dözüb hər əzaba,
Gələcəyə can atırsınız.
Halal zəhmətə qatlaşıb,
Xarüqələr yaradırsınız.
Şairi, müğənnisi, aşpazı var,
Alimi, müəllimi, mühəndisi var.
Halal zəhmətə qatlaşanın
Tanrı yanında hörməti var.
Ayrıseçkilik görmərəm, inan,
Gözümdə yüksəkdi zibil toplayan.
Ey zəhməti unudub yatan,
Halala göz yuman,
Oyan yuxudan, ətrafa bax,
Yaxşılardan ibrət al!
Arxalanıb xalqına,
Onlarla yatıb, onlarla oyan.

Allah nankoru islah eyləsin,
Zəhmət nədir bilsin.
Toplayıb arı kimi balı,
Qışda, qarda yesin.
Halal çörək,
Baldan şirindir.
Gündüz çalışıb, gecələr yazdım,
Nəsillərə saxladım.
Zamanın nə gətirəcəyini,
Zamana buraxdım.
Hikmətdən ilham aldım,
Əlimdə qələm yuxuya daldım.
İki dəqiqə yatmamış,
Yenə ilhamla yazdım.

**NADANLIQ**

Nadanlıq üzündən gəlsən oyuna,
Düşsən şeytan toruna.
Kimsə qurtarmayacaq,
Haqqa qaytarmayacaq.
Qalacaqsan illər uzunu,
Şeytanın olacaq oyunu.
Əllərinlə qazdığın quyunu,
Hünərin varsa saxla oyunu.
Dözüb əzaba ağlayacaq,
Özünü qınayacaqsan.
Özün qurtarmasan özünü,
Köməyi tapmayacaqsan.

Usanacaqsan candan,
Göz yaşı tökəcək sən.
İradəm azdır, deyə,
Özünü qınayacaqsan.
İradə, inam əkiz qardaşdı,
Həyatda sənə sirdaşdı.
Birini itirsən əgər,
Həyatın zülmətə dönər.
Haqqdan çıxanı gördüm,
İradəni, imanı itirəni gördüm.
Az gördüm Haqqa dönəni,
Günahdan qurtarıb özünü enəni.
Açıldı önümdə bir nurlu aləm,
Nəfsi enib dönəndən sonra,
İradəm azdır, deyib,
Haqq yoluna gələndən sonra.
Çoxu qurtarmadı özünü,
Əsarətdə qaldı axşam-səhər,
Yaşadı həyatda birtəhər.
Zarıya-zarıya mənzilə çatdı,
Kim idi, kimi aldatdı.
Ona verilən bu ömrü,
Boş yerə  yaşadı.
Savab qazanmadı əməliylə,
Kortək yaşayıb zülmətdə qaldı.
Toplasa varı dövləti,
Boş əllə  mənzilə çatdı.
Yaradan verib ağıl, düşüncə,
Qutar özünü düşüncə.
Hər yerdə inanıb Haqqın sözünə,
Sevgiylə an, onu düşünuncə.

Sevgi haqqın sevdiyi kəlmə,
Sən də sev oyuna gəlmə.
Mənasız yerə sərf edib onu,
Niyə sevgim yoxdur, demə.
O bir bulaqdır, qazmalısan,
Saf suyu tapmalısan.
Əgər yorulub yolda qalsan,
Hey özünü qınamalısan.
Məqsədə, çatmaq istəyən,
Gərək mətin dayansın.
Könül səsinə inansın.
Mən hələ də yol gedirəm,
Məqamı gözləyirəm.
Dinləyib Haqqın sözünü,
İlhamımla söyləyirəm.

Bu yol sevgi yoludur,
Lönlümdən keçir.
Sizi Haqqa səsləyir,
Sizə sevgi diləyir.
Sevgisiz insan kimə gərək,
Şeytana əsir düşəcək.
Əgər sevgin böyüksə,
Şeytan gen gəzəcək.
Sevgi ilə yaranıb cahan,
Sən də bax al ilham.
Boş yaşama qalan ömrünü,
Zülmətə düşüb yorma özünü.
Sevgin böyüksə ilhamın böyükdü,
Sevgisiz insan dünyaya yükdü.
Sevgi ilə dillənir könülmün səsi,
Söyləyir öz nəğməsini.

## BİLİRƏM, HAZIR DEYİLSƏN

Haqq yoluna səsləsəm də,
Bilirəm, hazır deyilsən.
Nəfsini yenə bilmək üçün,
Könlünü dinləyəsən.

İnşallah, dönəcəksən,
İmana gələcəksən.
Əsiri olmayıb nəfsinin,
Tövbə edəcəksən.

Ümidlə üz tutdum Rəbbimə,
Nəfsini enmək dilədim sənə.
Biz nə qədər çox istəsək də,
Zaman sözünü deyəcək yenə.

01.04.2011

## İNŞALLAH PİLLƏ-PİLLƏ UCALACAĞAM

İnşallah pillə-pillə ucalacam,
Arzulara çatacam.
Sevgisinə layiq olub,
Sözümü aləmə yayacam.
Atacam qəmi-kədəri,
Zülmətdən keçəcəm.
Yenə eşq şərabından içib,
Tənhalığı seçəcəm.
Kəm baxanların
Önündə susmayacam.
İlhamımla yazıb,
Mətin dayanacam.
Hər şeyi haqqa buraxıb,
Onu vəkil seçmişəm.
Ədalətə inanıb,
Gələcəyi gözləmişəm.
Qalmasa dostum belə,
Tənhalıqdan qorxmayacam.
Haqqın mənlə olduğuna
İmanımla inanacam.
Səs-küy yaradacaq,
Mənəmlik gözlərini tutacaq.
Qadının haqq aşıqi olduğuna,
Çoxunun paxıllığı tutacaq.
Tanrı məni sevibsə,
Burda mənim nə günahım?!
Çox çək-çevir eləmə,
Tutacaq ahım.
Könlümün ağrısını
Duya bilərsənmi?

Ağrılardan yatmayıb
Dözə bilərsənmi?
Edilən haqsızlığa,
Sinə gərərsənmi?!
Başqa şahid olsaydı,
Şahid gətirərdim.
Əlimdə olmayan sübutla
Tanrını şahid göstərərdim.
Hər bir haqsızlıqa
Səbrlə dözəndir.
Yerdəki aşiqlərinə
Səbrlə döz deyəndir.
Səbrlə dost olmuşam,
Hər şeyi ona buraxmışam.
Dünyanın belə getməyəcəyini
İmanımla inanmışam.
Allah dostları səbrlə dözəndi,
Dünyanı boş biləndi.
Bir də Haqqdan çıxmayıb,
Önündə diz çökəndi.

## NƏDƏN BELƏ GƏNC QALIBSAN, DEYƏNƏ

Ürəyim sevgi ilə dolub-daşıb,
Yüz yerdən oxlanıb.
Yaşamadığı, illəri
Sonraya saxlayıb.
Tale inşallah, yar olacaq,
Allah məni ucaldacaq.
Silib ağrı-acımı,
İlhamımı çoxaldacaq.
Nədən gənc qalıbsan,
Söylər mənə.

Könlümdəki tufandan,
Xəbəri yoxdur belə.
Sevən ürəkdə bir bahar yaşar,
Bütün dünyaya sevgi bağışlar.
Gözümdəki yaşlar könlümə axar,
Ruhumu zamana
Cavan saxlayar.

## SAF-ÇÜRÜK EDƏNLƏRƏ

Əhdə vəfalı olan
Vicdanla baş-başa qalar.
Bədxaqdan uzaq olub,
İmanı tamamlar.

Bənzəmir çox kəsə,
Əməlim azdır, deyə,
Hər gün artırıb
Rəbbini sevindirər.

Tanrının şah əsəridir,
Göydən yerə endirib.
Hər kəsi imana çağırıb,
Düz yol göstərib.

Açıb oxumalısan,
Xəbərdar olmalısan.
Tək şəriətə sığınıb,
Rəbbinə yar olmalısan.

Gəlin üzüqara getməyək,
Şeytanı sevindirməyək,
İslamı yaşadıb,
Hər kəsi ibadətə səsləyək.

Nicat yalnız ondadır,
Həm də ki, Qurandadır.
Hər gün sülhə səsləyən,
Gözəl imandadır.

Özü bir gün gələcək, (surə 43.61)
Çox üzləri güldürəcək.
Qiyaməti elan edib,
Dünyanın sonudur, deyəcək.

Arif olan anlayacaq,
Məryəm oğlunu tanıyacaq,
Vədə gələn zaman,
Ona əməl olunacaq.

Atəşlərdə yanacaq,
Sorğu-sual olunacaq,
Sol tərəf sahibləri,
Cəhənnəmlik olacaq.

2011



## NƏ DEYİM ŞÜBHƏLƏRƏ

***Bəzi insanlar şübhə ilə baxırlar***
***Mənə irfanla dediyinə***

Dedi: Denən əsl imana gəlsin,
Şübhədən kənar gəzsin,
Tapa bilməsə rahatlıq,
Nəfsini təmizləsin.

Nəfsi üstün olub,
Mənəmliyə qalxıb,
Əsl aşiq olduğuna,
O mane olub.

Qalxsaydı bəsirətə görərdi,
Rəbbinə güvənərdi.
Röyarda ilham alıb,
Möcüzəni gözləyərdi.

Qəlbləri mən görürəm,
Aşiqliyə yüksəldirəm.
Hər bir dərdinə
Səbri mən verirəm.

Əzizinəm, gülə naz,
Gəlsə hər ağızdan bir avaz,
Sevgini döndərə bilməz,
Vəsvəsəyə sala bilməz.

Kaş ki, görə biləydin
Qəlbimin ağrısını.
Sənə olan sevgimin
Ürək yanğısını.

Özünü çox yormusan,
Ağrılarda qalmısan.
Yenə qalmayıb yoldan,
Mətin dayanmısan.

İnşallah, dayanacağam,
Çapa yollanacağam.
Mənə olan sevgini
Aləmə yayacağam.

Əsl aşiq usanmaz,
Doğru yoldan qalmaz,
Əhdə vəfalı olanlar
Yanımda üzüqara olmaz.

Topla gəl savabları,
Sənə lazım olanları,
Alma vecinə əsla,
Sənə kəm baxanları.

## TƏSBEH VƏ MÖHÜR

Bir yerdə qərar tutub,
Həm də yoldaş olubsunuz,
Xidmət edib islama,
Zikrlə tanınıb.

Yüz bir dənə düzülüb,
Zikir üçün düzülüb,
Babalardan yadigar qalıb,
Hey ələ götürülüb.

Sanki gözəl çiçəkdir,
Ətrindən doymaq olmaz,
Onunla zikr edən,
Əldən qoymaz.

Xatırladır narı bizə,
Pərdələri görünmür gözə.
Deyirik biz-bizə
Təsbeh yaraşır möhürümüzə.

Alnımızda izi qalacaq, (surə 48.29)
Cənnətdə şahidliyə qalxacaq.
Möhürü yox sayanlar,
Özü məəttəl qalacaq.

Torpaqdan yaranıb gedəcəyik torpağa,
Möhürə baxan baxmayacaq kənara.
Möhürlə namaz qılmayan
Gedəcək çox xəyala.

Fikri cəmləşdirmək olacaq çətin,
Şeytan yayındıracaq fikirləri.
Məşğul edib özüylə,
Yaddan çıxaracaq zikirləri.

Adəm oğlu eyləmə təlaş,
Şəriətə əməl edib ol sirdaş.
Yaddan çıxartdığın ibadətin,
Olmayacaq sənə qardaş.

## İNANA BİLMİRƏM

İnana bilmirəm
Bunları mən yazmışam.
Yazmağına yazmışam,
Özüm də mat qalmışam.
Sözləri mənim deyil,
Kimlər verib sözləri,
Kimlər deyib sözləri?!
Mənim şeirlərimin
Haqqdan gəlib sözü.
Mən kiməm ki,
Özüm deyim sözləri?!
Hər zəmanə üçün
Təptəzədir sözləri.

Şükürlər olsun Yaradana,
Lənətlər olsun şeytana!

## AŞIQ SƏNƏTİ

Haqqdan gəlib,
Sözünü ilhamla deyib.
Əbədi qalsın deyə,
Nəsillərə ötürülüb.
Çox dastan yazılıb,
Tarixdə qalıb.
Peşəkar aşıqlar,
Sevə-sevə oxuyub.
Nadir incitək
Sözləri seçilib.
Aşıq sənəti
Hər zaman sevilib.
Kafir bilməz qədrini,
Nadan anlamaz kəlməsini.
Haqdan gələn aşiqlərin,
Duymaq gərək ətrini.
Hər saz çalan aşıq deyil,
Hər şeir deyən şair deyil,
Aşıq gərək susmasın,
Şair düz sözü yarsın.
Çəksələr onu dara,
Aldanmasın vara.
Aşıq gərək halal olsun,
İlhamıyla yazsın.
Kəsib ata  bilmədiyi
Nəfsinə qul olmasın.
Aşıq sənəti yaşayacaq,
Onu sevən yaşadacaq.

Haqqdan gələn sözləri,
Xalqa çatdıracaq.
Dilləndirin telli sazı,
Gəlsin hər obadan avazı.
Hikmətləri oxuyun,
Yaradan qalsın razı.
Haqq aşiqi ilham alıb,
Neçə aşiqlər qalıb.
Gəzəcək dünyada nəğmələrim,
Hər zaman oxunacaq.
Sevgim yerdə qalacaq,
Sizi islama çağıracaq.
Tarixlərdə yaşanan
Sevgili qadın olacaq.
Ölüm yox olmaq deyil,
Ruhun bayramıdır.
Azadlığa çıxacam,
Haqqla qovuşacam.
Qiyamət gələn zaman
Dirilib çıxacam.
Ölüm ömrümüzün qışıdır,
Baharda yaşıllaşacam.
Qış getməsə, bahar olmaz,
Qiyamətdə dünya tanınmaz.

## SEVGİMİ ŞEİRLƏRİMƏ VERDİM

Elə sevdim ürəkdən,
Vuruldum bilməyərəkdən.
Arzu-kama yetmədim,
Xoşbəxtlik nədir bilmədim.

Ətrinə məst eylədim gülləri,
Sevgimlə açdım səhəri.
Tuta bilməyib qərar,
Unutdum illəri.

Tale üzümə gülmədi,
Hələ əzab çək, dedi.
Ən böyük sevgini
Şeirinə ver, dedi.

İşim yazmaq oldu,
Könlümü ovutmaq oldu.
Əl üzüb vəfasızdan,
Azad oldum yalqızlıqdan.

Şeirim həmdəm oldu,
Mənimlə yaşadı acılarımı.
Ayrı bir aləmə götürdü məni,
Ancaq yazdım könlüm deyəni.

Çox yalvardım unudum,
Adını anmayım deyə,
Yaradan gətirdi məni ilhama,
Səsimi yaydı cahana.

Sevgi qatdım hər sətrinə,
Könlümdən könülə axsın deyə.
İmana çağırdım çox kəsi,
Öz nöqsanını görsün deyə.

## MÜQƏDDƏS QURANI YANDIRANA SÖZÜM

Dedi: Sülhə gəlməyib,
Özünə bəla istəyib.
Hürüyyəti gözləməyib
İslamı pisləyib.

Göz dağı olacaq,
Lənətlə tanınacaq.
İslamı yox sayanların,
Yeri cəhənnəm olacaq.

Ruhu xəstə olub,
Şeytana dost olub.
Quranı bəyənməyib,
Odda yandırıb.

Mənən sındırmaq istəyib,
Özünü üstün görüb,
Hey siyasət hazırlayıb,
Hər zaman qan töküb.

Allah alıb qısasını,
Yer üzündən siləcək.
İslamı dünyaya yayıb,
Hər yerdə əzan eşidiləcək.

Dedim: Gəlin islamı yaşadaq,
Əsl imana gələk.
Sevindirib Rəbbimizi,
Şeytanı qəmləndirək.

06.04.2011

## İMANDA KAMİLLİYƏ NECƏ ÇATMAQ OLAR

Dedi: Nə əkərsən onu biçərsən,
Düz yolu özün seçərsən.
Çıxsan əgər şəriətdən,
Zülümlərə düşərsən.

Arzulara çatmaq üçün,
Kamilliyə yetmək üçün,
Yüz ölçüb, bir biçməlisən,
Nəfsini aclıqla öldürməlisən.

Qəsdən qaçırmayıb namazı,
Çox şeyə qalsan da tamarzı,
Sevəsən sən azı,
Özündən olmayasan razı.

Sünbülləri dərəsən,
Onu ellərə göndərəsən.
Səni sevən könülləri,
Şad edəsən.

Vurasan işini başa,
Yaxşılığı vurmayasan başa.
Ellər çıxsa pişvaza,
Sən edəsən tamaşa.

Bizim ellər, bizim ellər,
Vardır sənə gözəl güllər.
Yusan əgər günahları,
Görərsən fərmanları.

06.04.2011

***

### *Ya Rəbbim, bismillahla kəsilməyən heyvan ətlərini yeyəndə nələr olur?*

Dedi: Ruhu əziyyət çəkəcək,
Çox xəstəliyə düşəcək.
Bismillahla kəsilməsə
Nəfsinə yenik düşəcək.
Kim yeyərsə murdarı,
Olmaz onun qərarı.
Göydəki mələklər
Sevməz o günahkarı.
Tüfeylililiklə gəzəcək,
Nə gəlsə yeyəcək.
Bəsirəti bağlanıb
Şeytana əsir düşəcək.
Yarı yolda qalacaq,
İlhamı bağlanacaq.
Özünə günah qazanıb,
Yumağa çalışmayacaq.

***

***Ya Rəbbim, haram yeyəndə nələr olur?***

Dedi: Özünə cəhənnəm hazırlayar,
Bəlaları yaxınlaşdırar.
Əgər tövbə etməsə
Yüz yerdən oxlanar.
Kim yeyərsə haramı,
Əzabda qalar canı.
Heç kəs qurtara bilməz,
Olmaz onun dərmanı.
Halalı harama qarışdırmayın,
Zəhməti puça çıxarmayın.
Kafirliklə tanınıb,
Günahlar qazanmayın.

2011

***

Şükür sənə, İlahi,
Nə hikmətdir bu,
Nə hörmətdir bu?!
Könlümə verib sözləri, (surə 29.49)
Qoymayıb tənha məni
Unutdurdun qəmi.

Nə qədər şükürlər deyim mən sənə,
Nə qədər şükürlər desəm də azdır?!
Mənə dərdli könlümdən sözləri yazdır,
Sənə olan sevgim yenə də azdır.

İnşallah, kitabımı çap etdirəcəm,
Sizə ətirli güllər gətirəcəyəm.
Könlünüzdə əkib sevgi toxumu,
Bir gün həyatdan köçəcəm.

Allaha şükürlər olsun,
Allah şeytana lənət etsin!
Amin!



MÜNDƏRİCAT

MÖCÜZƏ ....................................................................... 4
KİMDİR......................................................................... 4
YALAN DÜNYA .............................................................. 6
GERÇƏK DÜNYA .......................................................... 7
GERÇƏK ÖLÜM ............................................................ 8
CƏHƏNNƏMƏ GEDƏNLƏR ........................................... 8
QİYAMƏTİN ƏLAMƏTLƏRİ.......................................... 10
VARIN ƏLDƏN GETMƏSİ ........................................... 11
ZƏLZƏLƏLƏR .............................................................. 12
NANKOR İNSAN .......................................................... 13
İLHAMIM ...................................................................... 14
İMZASI YOX................................................................. 14
İLAHİ SEVGİ ................................................................ 15
BƏZİ ALİMLƏRƏ ......................................................... 15
VULKAN....................................................................... 16
MƏHƏMMƏD PEYĞƏMBƏRƏ..................................... 16
BİGANƏLƏRİ ............................................................... 17
GERÇƏK OLAR ........................................................... 17
GÜCLÜ İNSAN............................................................. 18
DƏRD........................................................................... 18
ALLAH AŞİQLƏRİ ........................................................ 19
GƏLƏCƏYİMİZ ............................................................ 20
ALLAH EŞQİ ................................................................ 20
İMAM HÜSEYNƏ ......................................................... 21
YETMİŞ İKİ ŞUHƏDA ................................................. 22
ƏHLİ-BEYTƏ................................................................ 22
ŞƏHİD ƏLİ-ƏKBƏRİN XATİRƏSİNƏ ......................... 24
DİNLƏ .......................................................................... 25
İLHAMIMA İNANMAMIŞDIR........................................ 26
HEKAYƏTİM VAR........................................................ 27
MÖMİNLƏR.................................................................. 28
ŞAH ƏSƏRİ ................................................................. 30
BƏLALI CANIM ............................................................ 31
KEŞKƏ BU KEŞKƏLƏR OLMAYAYDI ....................... 33

KÖNÜL DÜNYAMA SƏYAHƏT....34
HAQQ YOLU....35
ORUCUN SAVABINI SAYMAQLA QURTARAN DEYİL....36
NAMAZDA ŞEYTANIN FİTVASI....37
ƏZAN....39
GİCİTKAN....40
ZALIMIN ZÜLMÜ....43
İKİNCİ BAHARIMI GÖZLƏYİRƏM............ **Oşibka! Zakladka ne opredelena.**
YA RƏBBİM, KİMLƏRƏ BƏDAHƏTƏN İLAHİ
ŞEİR DEMƏK NƏSİB OLUR....49
BAYATILAR....50
ŞƏRABIN İMANA TƏSİRİ BİLMƏK İSTƏRDİM....53
AQİLLƏ HİKMƏT BİRLƏŞMƏSƏ ƏGƏR NƏLƏR OLAR....54
YA RƏBBİM, NƏDƏN NAMAZ QILIB
ANCAQ ƏMƏLİ DÜZ OLMURLAR....57
YA RƏBBİM ŞƏRİ-ŞEYTANDAN QORUNMAQ ÜÇÜN
NƏ ETMƏK LAZIMDIR....63
CƏMİ AĞIR XƏSTƏLİKLƏRİN DƏRMANI NƏDİR....65
YA RƏBBİM, İLHAM NƏDİR....66
NƏDƏN KƏLBƏLADA HƏLƏ DƏ
ŞƏHİD OLURLAR....67
KƏRBƏLA TORPAĞINDA ZİYARƏTƏ GEDƏRKƏN
TERRORİSTLƏR TƏRƏFİNDƏN ŞƏHİD OLAN BAKININ
MƏŞTƏĞA KƏNDİNDƏN OLAN 16 YAŞLI LEYLA XANIMA....70
HİCAB....72
HİCABSIZ XANIMLARA....74
HİCABI QADAĞAN EDƏNLƏRƏ....78
ƏN BÖYÜK DÜŞMƏNİMİZ KİMDİR....79
NƏFSİ NECƏ ENMƏK OLAR....80
İSLAMA DÜŞMƏN OLANLARA....84
ÖLÜM....85
ŞAİRİN İŞİ....86
ŞEİR YAZAN....87
YALAN DÜNYA....87
SÖYLƏ, DÜNYA NƏLƏR ETDİN....88

EŞQ....................................................................................90
FƏRMAN DİNLƏNİR...............................................................90
GƏLƏCƏKDİR.........................................................................91
ZAMAN...................................................................................92
HARDASAN ............................................................................92
«SÖYLƏ HƏYAT, SƏN KİMİNSƏN» .......................................93
PAXILLIQ ...............................................................................96
DİNİ PƏRDƏ ALTINDA GİZLƏNƏN İMANSIZLARA............100
DÜNYANI SEVGİ QURTARACAQ.........................................101
GÜNDƏ NEÇƏ DƏFƏ NAMAZ QILMAQ OLAR .................102
ALLAH AŞİQLƏRİ EŞQ ŞƏRABI İÇƏRLƏR **Oşibka! Zakladka ne opredelena.**
HƏR ŞEYİ ÇOX İSRAF EDƏNLƏRƏ ..................................105
ŞƏRABIN İMANA TƏSİRİ.....................................................108
20 YANVAR ŞƏHİDLƏRİNƏ...................................................110
BİLMƏZSƏN ..........................................................................111
XOCALI ŞƏHİDLƏRİNİN ƏZİZ XATİRƏSİNƏ .......................112
CƏMİ ŞƏHİDLƏRİN ƏZİZ XATİRƏSİNƏ .............................114
KİMLƏRƏ DEYİLİR GERÇƏK YUXU ...................................116
HƏZRƏTİ MUHƏMMƏD (Ə.S) DOĞUM GÜNÜ ...................117
ON İKİ İMAMA........................................................................120
HƏZRƏTİ MUHƏMMƏD (Ə.S) ...............................................121
AŞURA GÜNÜ ........................................................................122
SÜBH NAMAZINI QƏSDƏN QAÇIRANLARA.......................123
SAHİB- ƏZ-ZAMAN.................................................................124
İLHAM GƏRƏK .......................................................................125
SÖZ XƏZİNƏSİ.........................................................................125
CƏNNƏT MƏLƏKLƏRİNƏ ....................................................126
ƏLİ ƏKBƏRƏ..........................................................................127
ÜRƏYİ DAĞLI XANIM ZEYNƏBİN XATİRƏSİNƏ................128
XANIM RUQİYYƏNİN XATİRƏSİNƏ ....................................129
AŞIQ ƏLƏSGƏRİN XATİRƏSİNƏ.........................................130
SALIRMI YADINA....................................................................131
FALÇILARA..............................................................................136
ŞEYTANLA İNSANLARIN MÜBARİZƏSİ...............................137
DƏFTƏRİMİN VƏRƏQLƏRİ...................................................138
RUHU GÖZƏL OLANLARA ...................................................139

SƏVİYYƏSİZ OLANLARA........................................................140
NİYƏ MƏNƏ YOX, SƏNƏ VERİLİB İLHAM........................141
ŞAİRLİYİ GÖZLƏMİŞƏM........................................................141
ELƏ BİR DÜNYA İSTƏYİRƏM Kİ..........................................143
FARS ŞAİRİ SƏDİ ŞİRAZİNİN XATİRƏSİNƏ...............**Oşibka! Zakladka ne opredelena.**
AZƏRBAYCAN ƏSGƏRİ........................................................146
BƏZİ ŞAİRLƏRƏ SÖZÜM......................................................147
BƏZİ BƏSTƏKARLARA SÖZÜM...........................................150
ÜÇRƏNGLİ BAYRAĞIMIZ.....................................................152
TÜRK ŞAİRİ CƏLALƏDDİN RUHİ MÖVLANƏNİN ƏZİZ XATİRƏSRNƏ........................ **Oşibka! Zakladka ne opredelena.**
QURANI EVİNDƏ SAXLAYIB, ONDAN BİXƏBƏR OLANLARA...............................................................................155
İSLAMIN DÜŞMƏNLƏRİNƏ...................................................156
LƏNƏTLİK ŞEYTANIN FİTNƏSİ............................................160
8 MART QADINLAR GÜNÜNÜZ MÜBARƏK........................162
TÖVBƏ ETDİKDƏN SONRA ŞEYTANIN İNSANA TƏSİRİ NECƏ OLUR.............................................164
BİTİR BU İŞKƏNCƏNİ..........................................................166
YORĞUN DÜŞMƏMİŞ QAYIT GƏL.....................................169
AŞIQ QURBANİNİN ƏZİZ XATİRƏSİNƏ..............................170
EY İNSAN..............................................................................171
NƏ GÖZƏLDİR NƏFSİNİ YENƏN İNSAN...........................173
İLHAMINI MƏNƏ VER..........................................................175
ANA........................................................................................176
MƏNİM SADƏ XALQIMA......................................................177
NADANLIQ.............................................................................179
BİLİRƏM, HAZIR DEYİLSƏN................................................182
İNŞALLAH PİLLƏ-PİLLƏ UCALACAĞAM.............................183
NƏDƏN BELƏ GƏNC QALIBSAN, DEYƏNLƏRƏ..................184
SAF-ÇÜRÜK EDƏNLƏRƏ......................................................185
NƏ DEYİM ŞÜBHƏLƏRƏ.......................................................187
TƏSBEH VƏ MÖHÜR.............................................................189
İNANA BİLMİRƏM..................................................................190
AŞIQ SƏNƏTİ.........................................................................191

MÜQƏDDƏS QURANI YANDIRANLARA SÖZÜM ............... 194
İMANDA KAMİLLİYƏ NECƏ ÇATMAQ OLAR ..................... 195
YA RƏBBİM, BİSMİLLAHLA KƏSİLMƏYƏN
HEYVAN ƏTLƏRİNİ YEYƏNDƏ NƏLƏR OLUR ................. 196
YA RƏBBİM, HARAM YEYƏNDƏ NƏLƏR OLUR .............. 197

«Nərgiz-R» Nəşriyyat-Poliqrafiya firması

Baş direktor: ***Hidayət Musabəyli***

**«Nərgiz» nəşriyyatı**

Texniki redaktor: ***Kəmalə Məmmədova***
Korrektor: ***Yasəmən İsmayılova***
Dizayn: ***Yeganə İmanova***

Mətbəə müdiri: ***Akif Musayev***

Çapa imzalanmışdır: 25.05.2011
Kağız formatı: 60x84 1/16
Həcmi: 12,75 çap vərəqi
Tiraj: 300 nüsxə; Sifariş: 830

Nərgiz - NƏŞRİYYATI

Azərbaycan Respublikası Mətbuat və İnformasiya
Nazirliyi tərəfindən 1998-ci ildə qeydə alınmışdır.
Şəhadətnamə № 45.
Ünvan: 8-ci km qəsəbəsi R.Rüstəmov küç. 36
Nəşriyyatla əlaqə telefonları: 323-69-53
050-738-37-22



Röyamda ilham alıram,
Sizi ibadətə çağırıram.

Röyamda ilham alıram

Sevgi Miri

I Kitab